


Tbilisi 2015

Kitabın Adı: Nazənin Güllər
Müəllif: Adem SARAÇ
Elmi Redaktor: Hacı BƏKİROĞLU
Nəşrə Hazırlayan: Elnur SƏFƏROV
Dizayn: Elsevər ƏHMƏDOV

***Bütün Gürcüstan***
***Müsəlmanları İdarəsi***

**Tbilisi 2015**

# Nazənin Güllər

Hz. Həsən və Hz. Hüseyn
(25-26 yaşlarına qədər)

Adem SARAÇ

## TƏQDİMAT

Bizi müsəlman olaraq yaradan, Peyğəmbər və səhabələrini tanıdıb sevdirən və onların sevgisi ilə hamımızı şərəfləndirən Rəbbimizə (c.c) həmd olsun...

Yoluna qurban olduğumuz, həyatına heyran qaldığımız, hər hərəkətini örnək almağa çalışdığımız, sevimli Peyğəmbərimizə salət və salam olsun.

Onun ətrafında pərvanə olan, Ailəsinə, Əshabına, Ətbaına (ona tabe olanlara) və onların nurlu və şərəfli yolunu təqib etməyə çalışanlara da salət və salam olsun. Salam olsun...

Hz. Həsən və Hz. Hüseyn...

Həzrət Peyğəmbərin sevimli nəvələri...

Hz. Əli ilə Hz. Fatimənin ətirli gülləri...

Səhabeyi-kiramın göz bəbəkləri...

Hər kəsin can atdığı canlar...

Cənnət gənclərinin ağaları...

Canlar...

Onlar bizim də canlarımızdır...

**Gül diyarının Nazənin Gülləri**...

Olduqca gözəl, olduqca cazibədar, olduqca canlı, nazənin bir gül dəstəsi kimi çoxlu misallarla dolu olan bu əsəri o canlara qovuşmaq üçün can atan hər kəsə ithaf edirik.

O gözəl insanların gözəllikləri ilə gözəlləşmək və onlar kimi olmağa çalışmaq hamımızın ən böyük arzusudur, elə deyilmi?

O gülüstandan, o nazənin güllərdən bir dəstə də biz yığmaq istədik.

Elə isə gəlin, biz də bu gözəl güllərdən bir dəstə alaq...

Biz bu əsərimizdə Əziz Peyğəmbərimizin sevimli nəvələri Hz. Həsən ilə Hz. Hüseynin 25-26 yaşlarına qədər olan həyatları haqqında bəhs etməyə çalışdıq.

Gül məhəbbəti ilə yaşamaq və davamlı məhəbbət gülüstanından gül dərmək arzusu ilə bütün gül müştaqlarını bu gül məhəbbəti ilə salamlayırıq...

Sevgi ilə qalın...

**Adem SARAÇ**

**iyun 2009**

## İslam Günəşi...

İslam günəşi doğmuşdu artıq...

Başda Məkkə və Mədinə olmaq üzrə, bütün hər tərəf aydınlığa qərq olmuşdu...

Qaranlıqların islam günəşi ilə aydınlandığı, şəfəq dolu günlər gəlmişdi nəhayət...

Tikanlar gül, tikanlıqlar gülüstan olmuşdu...

Hər tərəfdə gül fidanları cücərməyə başlamışdı.

Gül diyarı...

Səadət əsri...

Peyğəmbər dövrü...

Səhabələr dövrü...

Hər cür gözəlliyin ən gözəl bir şəkildə yaşandığı xoş günlər...

Gözəl insanların gözəl mühitləri...

Günəş doğmuşdu artıq...

İslam günəşi...

**Gül ailə...**

Gül ailə...

Güldən güllər...

Övliyalar sultanı Hz. Əli...

Cənnət qadınlarının ən üstünü Hz. Fatimə...

Hz. Əli...

Uşaqlardan ilk iman edən səhabələrdən idi...

Peyğəmbər (s.ə.s) və Hz. Xədicə anamız ilə birgə ilk namaz qılan gül uşaqlardan idi...

Məkkə dövrünün səbir abidəsi idi...

Mədinə dövrünün qorxu bilməz mücahidi idi...

Fədakarlar fədakarı... İgidlər igidi... Qəhrəmanlar qəhrəmanı bir cəngavər idi...

Bədrdə, Uhudda, Xəndəkdə, Xeybərdə, Təbukda, Taifdə, Məkkədə, Hüneyndə...

Hər vaxt və hər yerdə...

İgidlər igidi bir cəngavər idi o...

Məhz belə bənzərsiz bir igiddi Hz. Əli...

Hz. Fatimə...

Peyğəmbər gülüstanının nazlı gülü...

Gözəllər gözəli idi...

Arınmış, günahsız, təmiz, pak bir huri idi sanki...

Fatimeyi-Zəhra...

Təmiz nəslin təmiz anası idi o...

“Fatimə mənim ruhumdur” deyə öyülüb sevilən Peyğəmbər qızı idi...

İbadət etməyə çox düşkün idi...

Sadəcə Ramazan ayında deyil, imkan tapdığı hər fürsətdə oruc tutardı. Gündüzlərini orucla, gecələrini də namazla keçirən biri idi...

“Peyğəmbərimizə onun qədər bənzəyən birini görmədik.” deyə tərif edilən bir gül idi...

O, Peyğəmbər gülüstanının nazlı bir gülü, təqvanın öndəri, həssas, anlayışlı, iffət abidəsi bir könül gülü idi...

Məhz belə bənzərsiz bir xanım idi Hz. Fatimə... Güllər diyarı cənnətdən gül mənzərələrini dünyaya əks etdirən gül ailə idi onlar...

Peyğəmbər kürəkəni Hz. Əli...

Peyğəmbər qızı Hz. Fatimə...

Müqəddəs cütlük xoşbəxt həyatın qollarında...

Gəlib keçmiş bütün hər kəsə örnək bir ailə...

Gül ailə idi onlar...

Gül ailə...

**Gül ailənin birinci gülü...**

Bir qonaq gözlənirdi. Həm də çox qiymətli bir qonaq. Bunun üçün fərqli bir hazırlıq vardı bu gün evdə. Bir fərqli təlaş vardı. Xoş bir təlaş... Həyəcanlı bir intizar vardı.

Müqəddəs evliliyin və xoşbəxt həyatın ilk meyvəsi gözlənilirdi...

Peyğəmbər gülü Hz. Fatimə dünyaya körpə gətirmək üzrə idi.

Əbə ilə yanaşı bu işdən başı çıxan xanımlar da orada idi.

Və gözlənilən doğum baş verdi...

Hz. Fatimə nur yumağı kimi bir oğlan uşağı dünyaya gətirdi.

Təqvimlər belə, həyəcanla hicrətin üçüncü ilinin Ramazan ayının on beşinci çərşənbə axşamını göstərirdi.

Sanki cənnət bağçasından qopub gələn bəyaz bir gül idi bu...

Olduqca gözəl, olduqca şirin, qardan daha bəyaz, pambıqdan daha yumşaq, ipək kimi incə, altun saçlı, gümüş bədənli bir nur körpə...

Peyğəmbərlər Peyğəmbərinə müjdə verildi dərhal...

Müjdələr olsun, ey Allahın Rəsulu! Ədəb və həya incisi gül qızınız Fatimeyi-Zəhra nur yumağı kimi bir oğlan övladı dünyaya gətirdi...

Bu gözəl mujdə ilə çox sevinib, nurdan bir abidə kimi yerindən qalxan Peyğəmbərimiz, günəşi belə kölgədə qoyacaq bir gülümsəmə ilə çox sevdiyi gül qızının evinə doğru yönəldi...

Evdəkilər Peyğəmbərimizi böyük bir sevinclə qarşıladılar.

Xoş gəldiniz, ey Allahın Rəsulu!

Sevinclə yanaşı böyük bir coşqu ilə dəvət etdilər içəri. Canımızdan əziz Peyğəmbərimiz hər vaxt olduğu kimi salam verdi əvvəlcə.

Sevimli qızı Hz. Fatiməyə sevgi və şəfqət ilə baxıb, halını, xətrini soruşub təbrik etdi onu.

Sonra da "Oğlum (nəvəm) haradadır? Onu mənə gətirin" buyurdu.

Ona verilən nur körpəni şəfqətlə qucaqladı. Dualar etdikdən sonra soruşdu.

“Ey Əli, bu uşağa nə ad verəcəksiniz?”

Ey Allahın Rəsulu! Bildiyiniz kimi mən hərb etməyi (döyüşməyi) çox sevirəm. Bunun üçün oğlumun adını Hərb qoymağı düşünürəm. Amma Allah şahiddir ki, mən sizin önünüzə keçə bilmərəm. Bundan utanar, həya edərəm. Bu uşağın adını siz qoyun.

Hz. Əli hərb etməyi çox xoşladığı üçün oğluna Hərb adını qoymağı düşünmüşdü. Lakin Peyğəmbərimizin bu sualı qarşısında ad qoymağı ona həvalə etdi.

Peyğəmbərimiz də olduqca qəribə və düşündürücü bir söz söylədi...

“Bu uşağa ad verməkdə mən də Allahın önünə keçə bilmərəm.” Peyğəmbərimizin bu düşündürücü sözü qarşısında bir anlıq nə deyəcəklərini bilmədilər. Mütləq onun bildiyi bir şey vardı.

Bəli, həqiqətən Allah təala sevimli mələklərindən Hz. Cəbraili göndərmişdi. Peyğəmbərimizə salam verən Hz. Cəbrail “Ey Allahın Rəsulu! Bu gözəl körpənin adını Həsən qoyun. Çünki Allah təala belə istədi!” demişdi.

Cəbrail ilə aralarında keçən dialoqu xəbər verən Peyğəmbərimiz nur körpənin adını Həsən qoydu.

Peyğəmbərimizdən sonra həm Hz. Əli, həm də Hz. Fatimə Həsən, Həsən, Həsən deyə səsləndilər bu nur üzlü gül balaya...

Peyğəmbər (s.ə.s) sonra da əmisi Hz. Abbasın xanımı Hz. Ümmül-Fəzlə xəbər göndərdi.

Peyğəmbərimiz tərəfindən çağırıldığını xəbər alan Hz. Ümmül-Fəzl Lübabətül-Kübra, bir nəfəsdə özünü yetirdi.

Ləbbeyk (buyur, əmrindəyəm), ey Allahın Rəsulu!

Elə böyük bir coşqu ilə atılmışdı ki, az qala Peyğəmbərimizin önünə yıxılacaqdı.

Peyğəmbərimizin hüzuruna can atan Hz. Ümmül-Fəzl, nur yumağı Həsənin süd anası olacağını öyrəndikdə gözləri yaşardı.

Peyğəmbərimizə əngin bir məhəbbətlə baxdı əvvəlcə. Sonra da Peyğəmbər kürəkəni Hz. Əliyə və Peyğəmbər gülü Hz. Fatiməyə baxdı.

-Bir neçə gün əvvəl olduqca qəribə bir yuxu görmüşdüm.

-Necə bir yuxu idi?

-Yuxumda gördüm ki, Peyğəmbərimizin mübarək vücudundan nurlu bir parça ayrılıb, bizim evə düşüb.

-Aman, Allah! Həqiqətən də çox qəribə bir yuxu görmüsən!

-Yuxumu Peyğəmbərimizə danışdıqda bilirsinizmi nə demişdi?

-Nə demişdi, deyə maraqla soruşdular.

-“Xeyirli və gözəl yuxu görmüsən, ey Ümmül-Fəzl. Bu yuxuna görə sevimli qızım Fatimənin bir oğlan övladı dünyaya gələcək və sən də onu Qusəm ilə birlikdə əmizdirəcəksən.”

-Allahu Əkbər!

Peyğəmbərimiz (s.ə.s) güllər kimi gülümsəyərək bu gözəl nur nəvəsini, əmisinin xanımı Hz. Ümmül-Fəzlə verdi.

O, canımızdan əziz Peyğəmbərimizin mübarək əllərindən aldığı körpəni böyük bir sevgi və mərhəmətlə bağrına basdı.

Dərhal oradaca bir kənara çəkilərək, bismillah deyib bu gözəl nur körpəni əmizdirməyə başladı. Nur körpə də heç bir çətinlik çıxarmadı.

Beləcə, Hz. Həsənin süd anası Hz. Ümmü-Fəzl oldu.

Gözlənilən qonaq, gözlənilən vaxtda gələrək oradakı hər kəsi çox sevindirmişdi.

Aradan yeddi gün keçdi...

Hər gün sevimli qızına baş çəkən Hz. Peyğəmbər yenə gəldi. Hz. Həsənin saçının kəsilməsini və ağırlığı qədər də gümüş sədəqə verilməsini buyurdu. Şəxsən özü də onun üçün əqiqə qurbanı olaraq iki qoç kəsdi.

Artıq kiçicik körpə böyüməyə başlamışdı...

Yatdığı yerdən ətrafına gülüşlər saçır, ata-anasını olduğu kimi, Peyğəmbər babasını da çox sevindirirdi.

Allah Rəsulu tez-tez onlara baş çəkir, bu gözəl gül körpəni qucaqlayıb oxşayırdı.

Yenə bir gün qucağına alıb oxşayarkən “Ya Rəbbi! Mən Həsəni sevirəm. Sən də sev. Onu sevəni də sev!” buyurdu.

Hz. Həsən, eynən sevimli anası Hz Fatimə kimi Peyğəmbər babasına çox oxşayırdı. Onlar qədər Peyğəmbərə bənzəyən heç kim yox idi.

Hz. Həsən bu gözəl gül ailənin ilk gülü idi... O, birinci gül idi...

**İkinci gül...**

Hicrətin dördüncü ili, Şaban ayının beşi idi...

Gül ailənin gülüstanında yenə böyük bir sevinclə bərabər, şirin bir təlaş vardı.

Birinci gül evi sevinc və fərəhə qərq etmiş, bir

il beləcə gəlib keçmişdi. İndi də ikinci gülün yolu gözlənilirdi.

İntizar uzun çəkmədi...

Peyğəmbər qızı Hz. Fatimə nurəfşan bir oğlan övladı da gətirdi dünyaya. Bu da birinci gül kimi ətrafa nur saçırdı.

Hz. Əli ilə Hz. Fatimənin evində yeni bir sevinc mehi əsirdi artıq. Peyğəmbərlər Peyğəmbərinə müjdə verildi...

-Müjdələr olsun ey Allahın Rəsulu! Ədəb və həya incisi gül qızınız Fatimeyi-Zəhra yenə dünyaya nur yumağı kimi bir oğlan uşağı gətirdi...

Peyğəmbərimiz mübarək üzündə günəş kimi parlaq sevinc təbəssümləri ilə sevimli qızının evinə tərəf yönəldi...

Evdəkilər Peyğəmbərimizi böyük bir sevinclə qarşıladılar. "Xoş gəldiniz, ey Allahın Rəsulu" deyərək, dəvət etdilər içəri.

- "Oğlum (nəvəm) haradadır? Onu mənə göstərin!"

Ona verilən nur körpəni şəfqətlə qucaqladı. Dualar etdikdən sonra soruşdu:

- "Ey Əli! Bu uşağa nə ad qoyacaqsınız?"

-Ey Allahın Rəsulu! Bildiyiniz kimi mən hərb etməyi çox xoşlayıram. Bunun üçün oğluma Hərb

adını qoymağı düşünürəm. Amma Allah şahiddir ki, sizin önünüzə keçmərəm. Bundan utanıb həya edərəm. Bu uşağın adını siz qoyun.

Hz. Əli, hərb etməyi çox xoşladığı üçün oğluna Hərb adını qoymağı düşünmüşdü. Lakin Peyğəmbərimizin bu sualı qarşısında, ad qoymağı yenə ona həvalə etdi.

Peyğəmbərimiz yenə çox düşündürücü bir söz dedi:

"Bu uşağa ad verməkdə mən də Allahın önünə keçə bilmərəm!"

Peyğəmbərimizin bu düşündürücü sözündən yenə çox duyğulandılar. Çünki Allah təala, sevimli mələklərindən Hz. Cəbraili göndərmişdi yenə.

Peyğəmbərimizə salam verən Hz. Cəbrail "Ey Allahın Rəsulu! Bu gözəl körpənin adını Hüseyn qoyun. Çünki Allah təala belə istədi!" demişdi.

Birinci gülə olduğu kimi, bu gülə də adı Peyğəmbərimiz verdi. Hüseyn qoydu adını...

Peyğəmbərimizdən sonra həm Hz. Əli, həm də Hz. Fatimə Hüseyn, Hüseyn, Hüseyn deyə səsləndilər bu gül körpəyə...

Peyğəmbərimiz (s.ə.s), yenə sevimli əmisi arvadı Hz. Ümmül-Fəzlə xəbər göndərdi.

Peyğəmbərimiz tərəfindən çağırıldığını xəbər alan Hz. Ümmü-Fəzl Lübabətül-Kübra bir nəfəsdə özünü yetirdi.

- Ləbbeyk (buyur, əmrindəyəm), ey Allahın Rəsulu!

Qucağındakı nur körpə ilə birlikdə, Peyğəmbərimizin güllər kimi gülümsədiyini görən Hz. Ümmül-Fəzl, yenə yuxusunu düşündü.

Bu gözəl nur körpəni də əmizdirəcəkdi demək ki. Buna çox sevindi. Beləcə, bu iki nur körpənin süd anası olma şərəfinə də nail olmuş olacaqdı.

Həsəndə olduğu kimi, bu dəfə də uşağı şəxsən Peyğəmbərimizdən alıb, bir kənara çəkilərək onu əmizdirdi.

Yenə Həsəndə olduğu kimi, Hüseyn də heç bir çətinlik çıxarmadı...

Aradan yeddi gün keçdikdən, gül ana da özünə gəldikdən sonra Peyğəmbərimiz yenə bu gül ailənin evlərini şərəfləndirdi. Onsuz da tez-tez onlara baş çəkirdi.

Kiçik nur yumağını qucağına aldı. Sevib oxşadı.

Qızı və kürəkəninə "Uşağın saçını kəsdirib, saçı ağırlığında gümüş sədəqə verin." buyurdu.

Sonra da yenə əqiqə qurbanı olaraq iki qoç kəsdirdi. Kəsilən əqiqə qurbanından bir miqdarının

(bud) əbəyə göndərilməsini, qalanının da, sümükləri qırılmadan bişirilib yeyilməsini və başqalarına da yedirdilməsini Hz. Əliyə tövsiyə etdi.

Sonra da nur körpəni sünnət etdirdilər.

Məkkədə olduğu kimi, Mədinədə də doğulan uşaqlar bir müddət süd anaya verilirdi.

Hz. Həsənin süd anası olduğu kimi, Hz. Hüseynin də süd anası, Hz. Abbasın xanımı Hz. Ümmül-Fəzl olmuşdu.

İki qönçə gül həm doğma qardaş idilər, həm də süd qardaşı olmuşdular...

**Qönçə gülləri incitməyin...**

Peyğəmbər nəvələri idi onlar.

Hz. Əli ilə Hz. Fatimə kimi seçkin ailənin seçkin övladları idilər.

Gül ailənin iki qönçə gülü idi onlar...

Onlar Həsən ilə Hüseyn idilər...

Doğulmaları ilə sadəcə gül ailəni deyil, bütün Mədinəni sevindirmişdilər. Hər kəs çox sevirdi bu iki qönçə gülü.

Peyğəmbərimiz də çox sevirdi bu nur körpələri...

Tez-tez onlara baş çəkir, qucağına alır, sevib oxşayırdı...

Yenə günlərin bir günü idi...

Hz. Peyğəmbər (s.ə.s) sevimli nəvəsini süd anasının evində görməyə getdi. Nur körpəni qucağına alıb oxşayarkən o, Peyğəmbərimizin üstünə bövl etdi.

Süd anası Hz. Ümmül-Fəzl də, “Rasulullahın üstünə bövl edib onu narahat etdin.” deyərək, uşağı dartıb aldı. Bu vaxt bir az inciyən uşaq da ağlamağa başladı.

Əmisinin xanımı Hz. Ümmül-Fəzli çox sevən Peyğəmbər, buna baxmayaraq ona xəbərdarlıq etdi...

“Ey Ümmül-Fəzl! Allah sənə kömək olsun. Allah səni rəhməti ilə bağışlasın. Sən sevimli nəvəmə əziyyət verərək və onu ağladaraq məni incitdin.”

-Ey Allahın Rəsulu! Səni incitməkdən Allaha sığınıram. Lakin uşaq üstünüzü islatdığı üçün çox pis oldum. Əyninizdəki paltarı da çıxarın yuyum.

Dərhal Rəsulullahın paltarını təmizləyərək ona geri qaytardı.

Lakin bu əsnada daha diqqətli olmalı olduğunu da öyrənmiş oldu.

“Sən sevimli nəvəmə əziyyət etdin və onu ağladaraq məni incitdin.” sözü qulaqlarında sırğa oldu.

Demək ki, bu iki qönçə gülü heç vaxt incitməməli idi.

Öz-özünə “Qönçə gülləri incitməyin.” dedi.

Heç vaxt incitməyin bu qönçə gülləri...

**O nə gözəl süvaridir...**

Bir gün Peyğəmbər (s.ə.s) Hz. Həsəni belinə alıb gəzdirirdi.

Gül uşaq da Peyğəmbər babasının belində sevincdən uçurdu.

Bunu görən bir səhabə gülümsəyərək söz atdı.

-Ey uşaq! Nə gözəl miniyin vardır?... Peyğəmbərimiz də gülümsəyərək cavab verdi.

-“O nə gözəl süvaridir!“

Günlər bu sevgi və məhəbbət seli içində axıb keçirdi...

**Qönçə gülləri ağlatmayın...**

Əziz Peyğəmbərimiz (s.ə.s) hər kəsə qarşı çox yaxşı davranırdı. Hər kəsə kömək etməyə çalışır, ehtiyacı olanların ehtiyaclarını aradan qaldırırdı...

Mümkün olduqca, başda yaxınları olmaq üzrə hər kəsə baş çəkir, yenə mümkün olduqca hər kəsin dərdinə dərman olmağa çalışırdı.

Xüsusilə sevimli nəvələrinin yanına çox gedirdi... Onların yanına gedərək, bir müddət onlarla maraqlanır, öpüb oxşayırdı.

Yenə bir gün də sevimli nəvələrini görməyə gedərkən, onların ağladığını hiss edən Peyğəmbərimiz, dərhal sevimli qızı Hz. Fatimənin evinə yönəldi.

“Onların ağlamalarından narahat olduğumu bilmirsənmi?” deyərək ona da xəbərdarlıq etdi.

Hz. Fatimə Peyğəmbər atasını incitdiyini anladıqda, o da çox pis oldu. “Bir daha ağlatmaram, inşallah. Təki, sən incimə, ey Peyğəmbər atam!” deyə cavab verdi.

Sevimli Peyğəmbərimiz “Onlar ağlayanda pis olduğumu bilmirsənmi?” deyə sözünü təkrar etdikdən sonra, hər birini ayrı-ayrı sevib oxşayaraq geri döndü.

Hz. Əli bu vəziyyəti öyrəndikdə “Qönçə gülləri ağlatmayaq, ey Fatimə!” dedikdən sonra öz-özünə təkrar etdi, “Qönçə gülləri ağlatmayın!”

Hz. Ümmü-Fəzl; “Qönçə gülləri incitməyin!” demişdi...

Hz. Əli də, “Qönçə gülləri ağlatmayın!” dedi... Bunlar nə mənaya gəlirdi görəsən? Bu gözəl qönçə gülləri kim incidəcəkdi? Kimlər ağladacaqdı bu canları?

Heç düşünən var idimi?

Bu söz gələcəkdə çox yaxşı anlaşılacaq və o günü yaşayanlar gözyaşı tökəcəkdilər.

**Sevimlinin sevdikləri...**

Peyğəmbərimiz (s.ə.s) hər iki nəvəsini də çox sevirdi. Onlara baxıb "Allahım! Mən bunları sevirəm. Onları  Sən də sev." deyərək, daima onlar üçün çox dualar edirdi.

Nur balalar bu dualara artıqlaması ilə layiq idilər təbii ki.

Sevimli nəvələri haqqında sual soruşanlara da çox düşündürücü cavablar verirdi:

"Həsən ilə Hüseyn  mənim dünyada qoxladığım iki reyhanımdır! Həsən və Hüseyni sevən məni sevmiş, onlara kin tutan da mənə kin tutmuş olar. Həsən və Hüseyn cənnət gənclərinin iki seyididir (ağalarıdır)."

Hz. Əbu Əyyub əl-Ənsari rəvayət edir:

"Bir gün Rəsulullah (s.ə.s)-in hüzuruna getmişdim. Həsən ilə Hüseyn də onun qarşısında oynayırdılar.

-Ya Rəsulallah! Sən bunları çox sevirsənmi? -deyə soruşdum.

- "Necə sevməyim? Bunlar mənim dünyada qoxladığım iki reyhanımdır" buyurdu."

Peyğəmbərimiz Allahın həbibi idi...

Hz. Həsən ilə Hüseyn də Peyğəmbərinin sevimliləri...

Beləcə bu iki nur uşaq “Sevimlinin sevdikləri” idilər...

**İmtahan vəsiləsi...**

Sevimli Peyğəmbərimiz (s.ə.s) bir gün Məscidi-Nəbəvidə camaata xütbə oxuyurdu. Səhabələr də böyük diqqət və məhəbbətlə onu dinləyirdilər.

Bu vaxt Hz. Həsən ilə Hz. Hüseyn məscidə girdilər.

Bu iki kiçik gül sağa-sola baxaraq irəliləyirdilər. Kiçik olduqları üçün də, tez-tez səndələyirdilər..

Onları görən Peyğəmbər (s.ə.s) bu cənnət güllərinin səndələyərək yerimələrinə dözə bilmədi.

Xütbəsini kəsərək minbərdən endi.

Sevimli nəvələrinin yanına gələrək, onları qucaqladı.

Sonra da sevimli nəvələri ilə birgə minbərə cıxdı. Birini bir dizində, digərini də o biri dizinin üstündə oturtdu. Sevimli gül nəvələrinə sevgi, şəfqət və məhəbbətlə baxdıqdan sonra, camaata yönəldi.

"Uca Allah necə də düz buyurub" dedikdən sonra, Təğabun surəsinin on beşinci ayəsini oxudu...

***"Həqiqətən, mal-dövlətiniz və oğul-uşağınız*** (sizin üçün) ***ancaq bir imtahandır."***

Əshabi-kiram, bu xatırlatmanı da bir xəbərdarlıq kimi qəbul edib, qulaqlarına sırğa etdilər...

Çünki onun hər sözünü ən qiymətli incilərdən daha üstün tuturdular...

**Dəvəyə minmək istəyirəm...**

Hz. Əli evdə yox idi.

Hüseyn də anası ilə danışırdı. Olduqca şən və sevinc dolu səsi ilə sanki bülbül kimi cəh-cəh vururdu. Sonra birdən ciddi bir sey istəyirmiş kimi səsini dəyişdirdi.

-Anacan!

-Nə istəyirsən, can balam?

-Anacan, mən dəvəyə minmək istəyirəm.

-Dəvəyə minmək istəyirsən?

-Bəli anacan, dəvəyə minmək istəyirəm.

-Yaxşı, amma oğlum, bu saatda hava çox isti olur.

-Heç nə olmaz.

-Oğlum indinin istisi adamı vurar.

-Məni vurmaz.

-Sən hələ çox balacasan. Səni daha tez vurar.

-Heç nə olmaz. Mən dəvəyə minmək istəyirəm.

-İncimə oğlum, indi olmaz.

-Çox istəyirəm axı!

-Axı atan da evdə yoxdur.

-Mən özüm minərəm, əsas odur ki, sən icazə ver.

-Xeyr oğlum, indi icazə verə bilmərəm sənə. Çox istidir, görmürsənmi?!

-Mən dəvəyə minmək istəyirəm!

-Gözəl balam, bəsdir daha, eyni sözü təkrarlayıb durma. İndi olmaz dedim sənə.

-Niyə olmaz axı?

-Dedim axı balam, hava çox istidir.

Anasından icazə ala bilməyən Hüseyn bir kənara çəkilib ağlamağa başladı.

Güllər gülü olan anası nə qədər dil töksə də onu sakitləşdirə bilmədi.

Elə bu zaman qapı döyüldü.

Ağlamağı dayandıran Hüseyn qapıya sarı qaç-

dı. Bir tərəfdən də “Allah eləsin gələn babam olsun!” deyirdi.

Həqiqətən qapını açdıqda Peyğəmbər babası ilə qarşılaşdı.

-Aaaa... Babam... Sevimli babam mənim... Peyğəmbər babam...

Beləcə qışqıraraq atıldı nur babasının qucağına. Sevimli Peyğəmbər babasının qucağında evə girdi.

Hz. Fatimə də Peyğəmbər atasını qarşılamaq üçün qapıya tərəf qaçdı.

-Xoş gəldiniz, ey Peyğəmbər atam!

“- Xoş gördük, gözümün nuru qızım!”

-Buyurun atacan, bu tərəfə buyurun.

“- Bu uşağı niyə ağladırsan, ey Fatimə?”

-Dəvəyə minmək istəyirəm deyib durur, ey Peyğəmbər atam! Hava çox istidir. Atası da evdə yoxdur. Ancaq uşaq başa düşmək istəmir.

“- Dəvəyə minmək istəyirsən, mənim balam?” deyə Peyğəmbərimiz uşağa baxdı.

-Bəli, ey Peyğəmbər babam. Dəvəyə minmək istəyirəm. Həm də çox istəyirəm. Hüseyni qucağından endirən Peyğəmbərlər Sultanı çöküb

dörd ayaq üstə durmuş kimi dayandı. Sevimli nəvəsinə sevgi ilə baxaraq “Bu da sənə dəvə, haydı min!” dedi.

Hüseyn də böyük bir sevinclə Peyğəmbər babasının belinə mindi. Ardınca da “Dəh, dəəəh” deyə yavaş-yavaş vurmağa başladı.

Peyğəmbərimiz də təbəssüm edərək dəvə kimi getməyə başladı.

Bu vəziyyəti bir yandan təəccüb, bir yandan da böyük bir xoşbəxtliklə izləyən Gül ana göz yaşları yanaqlarından süzülə-süzülə təbəssüm edirdi.

Elə bu dəmdə Hz. Əli içəri girdi.

Evdəki bu gözəl mənzərəni gördükdə söz atmadan dayana bilmədi...

- Ey uşaq! Nə gözəl bir minik tapmısan!

Peyğəmbərimiz də güllər kimi gülümsəyərək kürəkəninə cavab verdi...

- “Ey Əli! Elə o özü də gözəl süvaridir!”

Sonra Hz. Əli gedib uşağı Peyğəmbərimizin belindən götürdü.

Onların həyatı belə gözəl keçirdi...

**İki qönçə gülün güləşi...**

Əziz Peyğəmbərimiz (s.ə.s) yenə sevimli nəvələrinin yanında idi. Həsən ilə Hüseyn elə gözəl oynayırdılar ki, mələklər belə onlara qibtə edirdi. Oynayanda belə onlar bir-birlərini incitmirdilər...

Zarafatlaşarkən də əsla pis bir söz demirdilər...

Hər halları ilə cənnət gəncləri olduqlarını sübut edirdilər sanki...

Əziz Peyğəmbərimiz də oturub sevimli nəvələrinin oynamalarını seyr edirdi.

Gül balalar, birdən oynamağı dayandırıb bir-biri ilə güləşməyə başladılar. Peyğəmbərimiz də təbəssüm edərək "Haydı Həsən, haydı! Göstər özünü. Tut Hüseyni!" deyərək Həsənin tərəfini tutduqda Hz. Əli də müdaxilə etmədən dayana bilmədi.

-Ya Rəsulallah! Siz Hüseynin tərəfini tutmalı deyilsinizmi? Çünki Həsən, Hüseyndən böyükdür.

- "Sən, bu Cəbraili görmürsən?! O da Hüseynə "Haydı Hüseyn, haydı göstər özünü!" deyərək, Hüseynin tərəfini tutur."

-Deməli, siz də bunun ücün "Haydı Həsən" deyirsiniz?

Bu iki gül balanın oyun və güləşlmələrini mələklər belə heyranlıqla izləyirdilər.

Çünki onlar Həsən ilə Hüseyn idilər...

Çünki onların babaları Peyğəmbərimiz idi...

Çünki onların ataları Hz. Əli idi...

Çünki onların anaları Hz. Fatimə idi...

Çünki onlar tamam başqa idilər...

Bambaşqa uşaq idi onlar...

İki qönçə gül gözəl güllərin şəfqətli qolları altında böyüyürdülər...

**Allahı sevən Hüseyni sevər...**

Əziz Peyğəmbərimiz (s.ə.s), bir gün səhabələri ilə birlikdə dəvət edildikləri bir yerə gedirdi. Gedərkən yolda Hüseynə rast gəldi. Hüseyn dostları ilə oynayırdı. Səhabələrə “Siz gedin!” dedikdən sonra Hüseynə tərəf döndü. Hüseyni qucaqlayıb oxşamq istədi.

Lakin Peyğəmbər babası ilə oynamağı çox xoşlayan Hüseyn ora-bura qaçır, babasının əlindən çıxmağa çalışırdı. Peyğəmbərimiz (s.ə.s) də, təbəssüm edərək arxasınca qaçır, onu tutmağa calışırdı.

Gül uşaq ilə gül Peyğəmbər...

Nur uşaq ilə nur Peyğəmbər...

Hər yer güllük, gülüstanlıqdı...

Gül uşaq, gül babası ilə oynamağın sevincini yaşayırdı.

Gül üzünə qurban olduğumuz gül Peyğəmbər də, sevgi və şəfqətlə sevimli gül nəvəsinin üstünə gedirdi... Nəhayət onu tutdu. Tutub özünə tərəf çəkdi. Bir əlini başına, bir əlini də çənəsinin altına qoyub onu öpdü. Sonra da:

"Hüseyn məndəndir, mən Hüseyndənəm! Allahı sevən, Hüseyni sevər! Hüseyn nəvələrdən bir nəvədir!" buyurdu.

Sanki bu buyuruğu ilə gələcəyə aid bir işarə verir və sanki üstüörtülü xəbərdarlıq edirdi.

Bir gün yenə Hz. Hüseyn məscidə girdi. Peyğəmbərimiz güllər kimi gülümsəyərək "Cənnətlik gənclərin seyidinə baxmaq istəyən, buna baxsın!" buyurdu.

Burada da yenə gizli bir diqqəti cəlb etmək vardı sanki...

"Hüseyn cənnətlikdir, əsla ona qarşı bir pislik etməyin." deyirdi sanki...

**Əhli-Beyt...**

Əziz Peyğəmbərimiz, bir səhər əynində qara yundan toxunmuş naxışlı Yəmən istehsalı olan bir örtü ilə evindən erkən çıxdı.

Babasını görən Hz. Həsən böyük bir sevinclə dərhal onun yanına qaçdı.

Peyğəmbərimiz də onu böyük bir sevgi ilə qucaqlayıb, örtüsünə bürüdü. Bir az sonra Hz. Hüseyn gəldi. O da eyni sevinc və xoşbəxtliklə sevimli babasının yanına qaçdı. Peyğəmbərimiz onu da qucaqlayıb örtüsünün altına aldı.

Sonra Hz. Fatimə gəldi. Sevimli atasına böyük bir məhəbbətlə baxdı. Peyğəmbərimiz onu da yanına cağırdı və qucaqlayaraq örtüsünün altına aldı. Daha sonra Hz. Əli gəlib çıxdı. Gördüyü bu gözəl mənzərə onun gözünü də, könlünü də fərəh hissi ilə doldurdu. Sevincindən gözləri yaşardı. Peyğəmbərimiz onu da cağırıb qucaqlayaraq örtüsünün altına aldı.

Yenidən hamısını qucaqlayıb belə buyurdu.

"Allahım! Bunlar mənim Əhli-Beytimdir. Bunlardan günah kirini təmizlə. Onları tərtəmiz et!"

Sonra da Əhzab surəsinin 33-cü ayəsini oxudu:

***"Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər!"***

Bir müddət belə qaldıqdan sonra da, onları örtüsünün altından çixarıb hər birinə böyük bir sevgi, şəfqət və məhəbbətlə baxdı, baxdı, baxdı....

Sonra qəlbləri riqqətə gətirən bir cümlə dedi...

Bu cümlə okeana düşsə onu qurudardı...

Ovaya düşsə, batıb gedərdi...

Dağlara düşsə, parça-parça edərdi... Bu cümləyə diqqət...

- "Mən bunlarla sülh içində olanlara sülh ilə davranaram. Bunlarla döyüşənlərlə mən də döyüşərəm!"

**Əhli-Beyt bir süfrədə...**

Bir gün Allah Rəsulu yenə sevimli qızı və kürəkəninə  qonaq idi.

Hz. Fatimə yemək hazırladı. "Buyur, Peyğəmbər atam, hamımız birlikdə yeyək." dedi.

Sevimli Peyğəmbərimiz də "Yaxşı, gözümün nuru qızım!" deyərək süfrə başına əyləşdi.

Beşi bir süfrədə...

Həm də necə bir beşlik!..

İlk olaraq Allahın **"Həbibim"** deyə aləmlərə təqdim etdiyi Peyğəmbərimiz...

Onun ətrafında günəşin ətrafındakı ulduzlar kimi pərvanələşən Hz. Fatimə...

Və övliyalar sultanı Hz. Əli...

Və nəhayət cənnət gəncləri Hz. Həsən ilə Hz. Hüseyn...

Varlığın səbəbi olan Hz. Peyğəmbər, dərin və incə Fatiməni sağ tərəfinə, övliyalar sultanı Hz. Əlini sol tərəfinə oturtdu. Həsən ilə Hüseyni də mübarək qucağına aldıqdan sonra bu mübarək ailəni əbasının içinə aldı.

Yeməkdən sonra baş verən bu mənzərə qarşısında, bütün mələklər onları seyr etməyə başladı...

Kainatın fəxri, sevimli canlarını, bu ən dəyərli varlıqları beləcə qucaqladıqdan sonra dua etdi:

"Ey mərhəmətli Rəbbim! Bunlar mənim Əhli-Beytimdir (Ailə üzvlərimdir)! Bunlar mənim xeyirlilərim və ən yaxınlarımdır. Bunlardan Sənin rizana zidd olan pislik, günah, şəkk və şübhələri, bütün pislikləri və şeytanın təhriklərini dəf et, bunları qoru. Pis əxlaqdan və digər gizli və aşkar ayıblardan tamamən təmizlə!.."

Bu gözəl duaya göylər dolusu bütün mələklər "Amin" dedilər.

Bu hadisə fərqli şəkillərdə bir neçə dəfə də baş vermişdi.

Ona görə də buna Ali-Əba deyilir.

Əhli-Beyt və Ali-Əba...

**Balaca, oradasanmı?..**

Hz. Əbu Hüreyrə rəvayət edir.

-Günorta vaxtı Peyğəmbərlə birlikdə bayıra çıxdıq. Nə o mənə, nə də mən ona heç nə demədən, Qaynuka oğulları bazarına çatana qədər getdik...

Sonra birdən geri dönüb Hz. Fatimənin evinə gəldik.

Peyğəmbərimiz burada Hz. Həsəni nəzərdə tutaraq “Balaca, oradasanmı? Balaca, oradasanmı?” deyə səsləndi.

O əsnada anası Həsəni yuyundurub, paltarlarını geyindirirmiş.

Çox keçmədən uşaq qaçaraq gəldi. Peyğəmbərimizlə Həsən qucaqlaşdılar. Bu zaman Rəsulullah (s.ə.s) “Allahım! Mən bunu sevirəm. Sən də bunu və bunu sevəni sev!” deyə dua etdi.

Sonra da işimizin dalınca getdik.

Hz. Əbu Bəkrə rəvayət edir. (Əbu Bəkr deyil).

-Rəsulullah (s.ə.s) minbər üzərində, yanında Hz. Həsən olduğu halda, bir dəfə camaata, bir dəfə də Həsənə baxaraq belə dedi: “ Mənim bu oğlum (nəvəm) seyiddir (əfəndidir). Ümid edirəm ki, Allah bunun vasitəsilə müsəlmanların iki firqəsi arasında sülhü təmin edəcək!”

Əshabi-kiram həzrətləri bunu da yaddaşlarına həkk etdilər. O günə qədər yaşayanlar bu halı görəcək və məhəbbət gülüstanından güllər dərəcəkdilər...

**Çox sevilənlər...**

Hz. Əbu Səid əl-Xudri rəvayət edir.

-Mən Peyğəmbərimizin belə buyurduğunu eşitdim: “Həsən ilə Hüseyn cənnət gənclərinin ağaları, ən gözəlləri və dəyərliləridir.”

Hz. Ənəs rəvayət edir.

-Rəsulullah (s.ə.s)-dən “Əhli Beytindən ən çox kimi sevirsən?” deyə soruşdular. Peyğəmbər (s.ə.s) də: “Həsən ilə Hüseyni!” buyurdu. Rəsulullah (s.ə.s) Hz. Fatiməyə: “Uşaqlarını çağır” deyər və onları öpüb qoxlayar, bağrına basardı...

Peyğəmbərimiz hər iki nəvəsinin də üstündə titrəyərdi.

Yenə bir gün belə buyurdu:

“Həsən və Hüseyn mənim oğullarımdır (nəvələrimdir). Onları sevən məni sevmiş olar. Məni sevən, Allahı sevər. Allah da kimi sevsə, onu cənnətə qoyar. Kim onları sevməz və onlara düşmənlik edərsə, mənə düşmənlik etmiş olar. Mənə düşmənlik edəni Allah sevməz. Allah da kimi sevməzsə, onu cəhənnəmə qoyar.”

O gülləri sevməmək olarmı?

Belə nazənin güllər necə sevilməsin?

Onlar üçün can atılmazmı?

**Həsən ilə Hüseyn Peyğəmbər babalarının yanında...**

Əziz Peyğəmbərimiz (s.ə.s) nəvələrinə necə düşkün idisə, nəvələri də Peyğəmbər olan babalarına eləcə düşkün idilər. Belə ki, onu görmədən dayana bilmirdilər.

Yeriyəcək yaşa gəldikləri vaxt səndələyə-səndələyə Məscidi-Nəbəviyə gedir, sevimli babalarını görən kimi, qaçıb mübarək dizləri üstündə otururdular...

Hz. Əli rəvayət edir:

Bir gun Allah Rəsulu oğullarım Həsən ilə Hüseynin əlindən tutaraq oradakılara xitabən belə buyurdu: “Kim məni, bu iki uşağı və bunların atasını və anasını sevsə, qiyamət günü mənimlə bərabər olacaqdır.”

Bu müdhiş mənzərə qarşısında bütün səhabələr böyük bir coşqu ilə belə dedilər:

-Sevirik, ey Allahın Rəsulu!

-Səni də sevirik, onları da...

-Sevirik, ey Allahın Rəsulu!

Allah şahiddir ki, çox sevirik...

Belə bir Peyğəmbər necə sevilməsin?

Belə bir xanım və kürəkən necə sevilməsin?

Belə gül nəvələr necə sevilməsin?

Biz də hayqırsaq olmazmı? Üstəlik elə ürəkdən hayqıraq ki, səslərimiz və məhəbbətimiz gedib ona çatsın... Bütün qəlbimizlə hayqıraq?

Sevirik, ey Allahın Rəsulu! Allah şahiddir ki, biz də sevirik onları...

**Mələklərin qoruduğu gül balalar...**

Peyğəmbərimiz (s.ə.s)-in sevimli əmisi Hz. Abbasın məşhur oğlu Hz. Abdullah necə də gözəl nəql edir...

Bir gün mən Allah Rəsulunun hüzurunda idim. Fatimeyi-Zəhra ağlaya-ağlaya gəldi. Gözlərindən inci kimi yaşlar axırdı, dayanmadan hıçqırırdı.

-Ey Peyğəmbər atam! Həsən və Hüseyn oynamaq üçün evdən çıxmışdılar. Aradan uzun vaxt keçməsinə baxmayaraq, hələ də gəlib çıxmayıblar. Nə qədər axtardımsa da, tapa bilmədim. Əli də evdə yoxdur. Bu uşaqlarımı kim tapıb gətirəcək mənə? Onlardan nigaranam.

- “Ya Fatimə! Allah təala onları mühafizə edər.”

-Çok gecikdilər amma... Qorxuram...

“-Qorxma! Allah təala onları mühafizə edər.”

Sevimli qızının çox kədərləndiyini və narahat olduğunu görən Hz. Peyğəmbər (s.ə.s) mübarək əllərini ərşi-əlaya qaldırdı.

“- Ya Rəbbi! Əgər nəvələrim dənizdədirsə, lütf qayığın ilə onları sahilə çıxar. Əgər səhradadırlarsa, hidayət rəhbərinlə evinə göndər.”

Rəsulullahın duası sadəcə o ana xitab edən, yalnız o anı qurtarmağa yönəlik bir dua deyildi. Onun duası bütün zaman və məkanları əhatə edirdi...

O anda Cəbrail (ə.s) gəldi və varlıq nuru olan Peyğmbərimizə xəbər verdi.

-Ey Allahın Rəsulu! Onları sən nə qədər sevirsənsə, Uca Allah səndən daha çox sevir... Sevgililər sevgililəri, böyüklər böyükləridir onlar. Anaları daha da yüksəkdir. Siz kədərlənməyin. Onlar Nəccar oğullarının bağçasında əminlikdədirlər. Allah təala, onları mühafizə etmək üçün iki mələk vəzifələndirdi. Onları qoruyurlar.

Mələyin gətirdiyi bu xəbəri eşidən axırzaman Nəbisi dərhal ayağa qalxdı və birbaşa o bağçaya getdi.

Cənnət çiçəkləri orada oynayırdılar. Peyğəmbər babalarını görən kimi dərhal oyunlarını saxlayıb onun mübarək qucağına atıldılar. Allah Rəsulu da onları sevib oxşadıqdan sonra birlikdə evə gəldilər.

Yolda səhabələrin böyüklərindən Hz. Əyyub Sultan ilə qarşılaşdılar. Hz. Əyyub Sultan dərhal:

- Atam-anam, hər şeyim sənə fəda olsun, ya Rəsulallah! Uşaqların birini mənə versəniz, mən aparsam olmazmı?

- “Ya Əba Əyyub! Bunlar dünyada mükərrəm, axirətdə də möhtərəmdirlər. Anaları bunlardan daha üstündür.”

-Əmənna, ya Rəsulallah! Lakin icazə verin sizə kömək edim.

Hz. Əyyub Sultan Rəsulullahın əziyyət çəkməsinə dözə bilmirdi. Çünki onu hər şeydən çox sevirdi.

Bu şəkildə sonsuz bir sevgi yumağı içində evə qayıtdılar.

Xanımlar sultanı Hz. Fatimə şükür səcdəsinə qapandı dərhal...

Sevimli Peyğəmbərimiz ilə bu iki gül övladın xətirləri çox əzizdir...

**Mədinə dövründə...**

Onların diyarı gül diyarı idi...

Peyğəmbərimiz və Əshabi-kiramın meydana gətirdikləri gülüstan idi...

Bəşəriyyətin, dostluğun, qardaşlığın, sevgi və məhəbbətin zirvədə olduğu bir dövr idi.

Sevgi mədəniyyətində məhəbbət gülləri özlərini göstərirdilər...

Gül diyarı rəngarəng güllərlə dolu idi.

Hər biri başqa bir parıltı ilə parlayırdı.

Hər biri başqa bir nur ilə nurlandı...

Gül diyarının nazənin gülləri arasında Həsən ilə Hüseynin ayrı yerləri vardı. Bu iki gözəl uşaq, gözəllik sirrinin gözəlləri idi.

Mədinə dövrü boyunca davam etdi bu gözəllik. Hər günü bir başqa gözəlliklə keçən Mədinə dövrü rəngarəng güllərin durmadan artıb çoxaldığı günlər idi.

Hər uşaq gül üzlü idi. Hər gül üzlü uşaq gözəl idi. Həsən ilə Hüseyn isə hamısından gözəl idi.

Peyğəmbər babalarından gördükləri əngin bir sevgi və şəfqət ilə keçirdi günləri. Peyğəmbər babalarını çox sevirdilər. Onun bir dediyini iki etmirdilər.

Sevimli babaları döyüşlərə çıxdıqda göz yaşları içində dua edirdilər onun üçün. Səfərlərdən qayıtdıqda da böyük bir sevinclə qarşılayırdılar onu.

**Qönçə güllərə Allahın hədiyyəsi...**

Gül balalar ac idilər.

Evdə də o vaxt yeməyə heç bir şey yox idi...

Belə olduqda Hz. Əli evdəki son altı dirhəmi götürərək, evə ərzaq almaq üçün bazara getdi. Elə alacaqdı ki, iki nəfərin bir-biri ilə artıq dalaşmaq üzrə olduğunu gördü. Mübahisələri borc üstündə idi. Biri alacağını tələb edir, digəri bir az da möhlət istəyirdi. Aralarına girib onları ayırdı. Ancaq yenə də bir-birlərinə girişdilər. Hz. Əli başqa çarə qalmadıqda çıxarıb altı dirhəmini onlara verərək mübahisənin qarşısını aldı. Beləcə evinə də əliboş qayıtmaq məcburiyyətində qaldı.

Gül uşaqlar səbirsizliklə üstünə atıldılar...

Yeməyə bir sey almadınmı atacan?

Atacan, çox acıq!..

Bu mənzərə Hz. Əlinin incilər dolu qəlbini sızlatdı. Gözləri inci kimi yaşlarla doldu, büllur kimi yanaqlarından süzüldü.

Atalarının bu çarəsiz halını görən nazənin gül-

lər də hıçqıra-hıçqıra ağladılar. Çarəsiz qalan ata sevimli analarına baxdı yaşlı gözlərlə. Xanımlar sultanı və cənnətlik xanım olan sevimli analarının nur gözləri hər şeyə rəğmən nurdan bir çıraq kimi parlayaraq “Səbir” deyirdi sanki.

Lakin uşaqlar təkidlə “Acıq!” deyirdilər...

“Yeməyə bir şey istəyirik!” deyə inləyirdilər...

Comərdlik dənizi olan Hz. Əli bu mənzərəyə dözə bilmədi. “İndi alıb gələrəm, bir az da səbir edin!” deyərək yenidən evdən çıxdı.

Bir yandan yolda irəliləyərkən, bir yandan da nə edəcəyini düşünürdü. Belə bir anda, qarşısında dəvəsini sürüb gələn bir nəfər peyda oldu.

- Ey Əli! Bu dəvəni satıram, alırsanmı?

- İndi üstümdə pul yoxdur.

- Sənə nisyə də verə bilərəm, pulu sonra verərsən.

- Elə isə alıram. Yaxşı, neçəyə verirsən?

- 100 dirhəmə...

- Aldım, qəbul etdim.

Dəvəni alan Hz. Əli onu ovsarından dartaraq bazara gətirdi. Bu dəfə də qarşısına başqa bir adam çıxdı.

- Ya Əli! Bu dəvəni mənə satarsanmı?

- Sataram, neçəyə alırsan?

- 300 dirhəmə razısanmı?

- Razıyam. Al, dəvə sənindir.

- Al, pul da sənindir.

Pulu alan kimi, dəvəni aldığı adamı axtardı. Bütün bazarı gəzdiyi halda adamı tapa bilmədi.

Evdə uşaqlar səbirsizliklə gözlədikləri üçün çox dayana bilməzdi orada.

Buna görə də “Sonra tapıb verərəm.” deyə düşünərək, pulu ödəməyi sonraya saxladı.

Əlindəki pulun bir hissəsi ilə ərzaq və meyvə alıb, əlləri dolu, üzü sevincli bir şəkildə evinə qayıtdı.

Sevimli xanımı və nur yumağı balaları sevincdən az qalsın uçacaqdılar. Hz. Əli bir tərəfdən olanları danışarkən, digər yandan da Hz. Fatimə yemək hazırlayırdı.

Ev şirin bir sevinc yuvası halına gəlmişdi.

Onsuz da evləri bir səadət ocağı idi. Orada gecə-gündüz Quran oxunar, səmadan dəstə-dəstə nur enərdi. Başqa bir gözəllik, başqa bir aləm idi onların evi...

Müqəddəs evdə sevinc və xoşbəxtlik son həddə çatmışdı ki, qapı döyüldü. Hz. Əli belə bir anda, birdən-birə qarşısında Peyğəmbərimizi görüb daha da sevindi.

-Buyur, ey Allahın Rəsulu!

-Əziz Peyğəmbərimiz (s.ə.s) nurlu bir çıraq kimi parlayan təbəssüm ilə salam verib içəri girdi.

Həsən ilə Hüseyn “Xoş gəldin, ey Peyğəmbər babamız!” deyərək böyük bir sevinclə nur qucağına atıldılar...

Nur baba ilə nur nəvələr qucaqlaşdılar... Hz. Fatimə də “Xoş gəldin, ey Peyğəmbər atam!” deyə qaçaraq gəldi.

Bu sonsuz məhəbbəti böyük bir sevgi ilə seyr edən Hz. Əli: “Yavaş olun uşaqlar! Bəsdir, bu qədər yormayın Peyğəmbər babanızı!”

Bir tərəfdən uşaqlarını xəbərdar edərkən, bir tərəfdən də Peyğəmbər olan qayınatasına yer göstərirdi: “Buyurun, ey Allahın Rəsulu! Bu tərəfə buyurun.”

Peyğəmbərimiz də göstərilən yerə oturarkən, güllər kimi gülümsəyirdi...

Onların danışmalarına fürsət vermədən, eyni təbəssümlə soruşdu...

- “Ya Əli!”

- Atam-anam sənə fəda olsun! Buyur, ya Rəsulallah!

- “Dəvəni kimdən alıb, kimə satdın?”

Allah və Rəsulu daha yaxşı bilər, deyərək bö-

yük bir təəccüblə Hz. Fatiməyə baxdı.

- "Ya Əli! Sənə dəvə satan Hz. Cəbrail, satın alan da Hz. İsrafil idi. Dəvə də cənnət dəvələrindən idi... O müsəlman qardaşını çətinlikdən qurtardığın üçün Uca Allah da səni belə mükafatlandırdı, düşdüyün bu çətin vəziyyətdən qurtardı."

Kainatın Peyğəmbərindən belə bir müjdə alan nurlu ev xalqı daha da nurlandı.

Bir yandan Peyğəmbərimizin möcüzəsinə şahid olmuş, digər yandan da övliyalar sultanı Hz. Əlinin kəramətini birlikdə yaşamışdılar...

Bu möcüzə Uca Allahın, cənnət gülləri Həsən ilə Hüseynə xüsusi hədiyyəsi idi...

Həsən ilə Hüseyn də çox sevinmişdi o gün...

## Ən Ağır Günləri

**Peyğəmbər babaları xəstə yatağında...**

Gül diyarı Mədinədə gözəl günlər bir-birini təqib edirdi... Hər kəs xoşbəxt, hər kəs sevincli idi.

Ancaq Peyğəmbərimiz (s.ə.s) xəstələndikdə vəziyyət birdən-birə dəyişdi...

Böyük Peyğəmbər xəstələnmişdi...

İlk dəfə bu qədər ağır xəstə olmuş və ilk dəfə bu qədər yatmışdı...

Gül diyarının nazənin gülləri Həsən ilə Hüseyn sevimli anaları ilə birlikdə, əziz babalarına baş çəkməyə gəldilər.

Peyğəmbərimiz (s.ə.s) bütün ağrılarına baxmayaraq, onları gülərüzlə qarşıladı. Onlarla qucaqlaşdıqdan sonra hər birini tək-tək süzdü.

Sonra da belə buyurdu.

- "Həsənə heybət və ululuğumu, əfəndiliyi, Hüseynə isə qəhrəmanlıq və comərdliyimi miras qoyuram!"

Onları təkrar süzdükdən sonra yenə buyurdu.

- "Həsənə təmkinini və heybətimi, Hüseynə də qəhrəmanlıq və comərdliyimi verdim!"

Həsən ilə Hüseyn bu böyük mirasa necə təşəkkür edəcəklərini bilmədilər. Bir yandan bu gözəl mujdəyə sevinərkən, bir yandan da çox ağır xəstə olan Peyğəmbər babaları üçün çox kədərlənmişdilər...

Xəstə yatağında belə, ailə üzvlərini və ümmətini düşünən Peyğəmbərimiz (s.ə.s), sevimli nəvəsi Həsənə baxdı...

"Sirət (yaşayış) və surət (görünüş) baxımından mənə ən çox bənzəyən sənsən!" Hz. Həsən sevinclə təkbir gətirdi...

Allahu Əkbər!

Sonra da Hz. Hüseynə baxdı...

"Cəsarət və qəhrəmanlıq baxımından da mənə ən çox bənzəyən sənsən!"

Hz. Hüseyn də sevinclə:

Allahu Əkbər!- dedi.

Peyğəmbər babalarını çox sevirlər, onun tərəfindən də çox sevilirdilər...

Sevimli Peyğəmbərimiz ağır xəstə olduğu üçün

yanında çox qala bilmədilər. İznini və dualanı alaraq yaşlı gözlər və qəmgin könüllərlə hüzurundan çıxdılar.

Peyğəmbər babalarının belə xəstə olması Həsən ilə Hüseyni çox kədərləndirmişdi.

Çünki onlar babalarını çox sevirdilər.

Onun sağalması üçün dua etməyə başladılar...

**Həzin ziyarətlər...**

Gül diyarının nazənin gülləri böyük bir kədər və hüznə qərq olmuşdular.

Çünki çox sevdikləri Peyğəmbər babaları xəstələnmişdi.

Sevimli babalarını görməyə gedir, onun yanında ağlamamaq üçün özlərini güclə saxlayırdılar.

Bu şəkildə dəfələrlə onu görməyə gəlmişdilər. Demək olar ki, hər gün sevimli babalarının yanına gedirdilər.

Hələ kiçik bir uşaq olmalarına baxmayaraq Peyğəmbər babalarının özlərindən ayrılacağını sanki anlayırdılar. Çünki dünya əbədi deyildi. Kim olursa olsun, hamı öləcəkdi.

Bütün bunları bilirdilər.

Bunun üçün də çox kədərlənirdilər...

**Həm bülbül, həm qartal...**

Çox gözəl tərbiyə almışdılar.

Axı sevimli babalarının dizinin dibində yetişmişdilər …

Bu iki qönçə gülü, ata-anaları ilə yanaşı sevimli babaları da tərbiyə etmişdi.

Hələ kiçik yaşlarında bir çoxlarının bilmədiyi mövzuları bilir, soruşulan ən çətin suallara çox gözəl cavablar verirdilər.

Nur saçan babalarının bütün söhbətlərini can qulağı ilə dinləyən, onun hal və hərəkətlərini diqqətlə izləyən Həsən ilə Hüseyn bülbüllər kimi Quran oxuyurdular. O qədər gözəl oxuyurdular ki, dinləyənlər heyran qalırdı.

Hər biri, bir Quran bülbülü olmuşdu...

Namazlarını da böyük bir ciddiyyətlə qılır, əxlaqları ilə hər kəsə örnək olurdular.

Sadəcə oxuyub-öyrənmə baxımından deyil, zahirən də yetişmişdilər.

Hz. Həsən səkkiz, Hz. Hüseyn yeddi yaşına çatmışdı.

Bu yaşda olmalarına baxmayaraq həm qılınc oynatmağı bilirdilər, həm də nizə atmağı. Eyni zamanda mahir oxatan idilər.

Hər biri bir qartal kimi yetişmişdi.

Yəni, yeri gəldikdə bülbül, yeri gəldikdə də qartal kimi ola bilirdilər.

Dostlarının yanında bülbül, düşmənlərə qarşı da qartal...

**Gül qardaşlar...**

Gül diyarındakı gül ailənin beş övladı var idi.

Həsənin 8, Hüseynin 7, Ümmü Gülsümün 5, Zeynəbin 1, Ruqiyyənin 2 yaşları vardı. Muhsin isə kiçik yaşda ölmüşdü.

Sevimli anaları bu gözəl qızlarına sevimli bacılarının adlarını vermişdi.

Beləcə, Həsən ilə Hüseyn də, sevimli bacılarının simasında sevimli xalalarını canlandırırdılar. Sevimli xalaları uzun illər əvvəl vəfat etmişdi. Onları çətinliklə xatırlayırdılar.

Həsən ilə Hüseyn gül ailənin ən böyük övladları olduqları üçün, bacılarına böyüklük edirdilər.

Ümumiyyətlə indiyə qədər çox gözəl bir həyat yaşamışdılar.

Amma indi sevimli babaları xəstələnmişdi. Bu xəstəliyindən sağalmayacağını sanki hiss etmişdilər.

Bunun üçün də çox kədərlənirdilər. Üstəlik də sevimli analarının elə hey ağladığını gördükdə, kövrək qəlbləri buna dözmürdü.

Həsən ilə Hüseyn vəziyyəti başa düşürdülər. Amma bacıları hələ çox kiçik olduqları üçün nə baş verdiyini anlamırdılar...

**Namaza gedə bilməyən Peyğəmbər baba...**

Peyğəmbər babalarının xəstəliyi getdikcə artırdı...

Bu vəziyyət hamını çox kədərləndirdiyi kimi Həsən və Hüseyn qardaşlarını da çox kədərləndirirdi. Son vaxtlar o qədər ağırlaşmışdı ki, namazları onun yerinə Hz. Əbu Bəkr qıldırırdı. Peyğəmbər babalarının yerində Hz. Əbu Bəkri görən nazənin güllər ağlamaqdan əldən düşmüşdülər. Çünki onun yerinə keçib camaata namaz qıldıran Hz. Əbu Bəkr də çox ağlayırdı.

Namaza belə, gedə bilməyən Peyğəmbər babaları üçün için-için dua edirdilər.

Həqiqətən o, çox ağır xəstələnmişdi...

Peyğəmbər babalarının bu halı pərişan edirdi nazənin gülləri...

**Çox sıxıntılı bir gün...**

Sevimli babalarının xəstəliyinə çox kədərlənən Həsən ilə Hüseyn kədərlərindən yeməkdən kəsilmişdilər...

Təkcə yemək deyil, gecələri yuxu belə yata bilmirdilər artıq.

Peyğəmbər babalarını çox sevirdilər çünki.

Onun xəstə olmasına dözə bilmirdilər.

Bu iş artıq çox ciddi bir hal almışdı.

Peyğəmbər babaları dünyadan köçmək üzrə idi...

Başda ata-anaları olmaqla hamısı bu kədərli sona hazırlaşırdılar.

Və bir gün...

Öncə Hz. Aişə anamız, sonra da digər səhabələr ***"İnnə lilləhi və innə ileyhi raciun!"*** ayəsini hıçqıra-hıçqıra oxuduqda, artıq baş verənləri anlamaqda çətinlik çəkmədilər.

Çünki bu ayənin mənası ***"Biz Allahdan gəldik və yenə Allaha dönəcəyik"*** demək idi.

Bu hadisə ilə sevimli Peyğəmbər babalarının vəfat etdiyini anlayan gül balalar, böyük bir sarsıntı keçirdilər.

Hər kəs pərişan olmuşdu...

Həyatlarının ən çətin günləri gəlib catmışdı...

Həqiqətən də çox sıxıntılı bir günün dar məngənəsinə sıxışıb qalmışdılar.

Necə dözəcəkdilər bu böyük dərdə?!

Necə dözəcəkdilər bu böyük itkiyə?..

Gözlər və könüllər qan ağlayırdı.

Hicran oxu ciyərləri dəlmişdi.

Bütün səhabələrin gözləri yaşla dolmuşdu.

Sanki səmalar, günəş və ulduzlar, dağlar və daşlar, bulaqlar və çaylar, göllər və dənizlər, canlı-cansız hər varlıq onlarla bərabər göz yaşı tökürdü...

Yalnız Hz. Fatimə deyil...

Yalnız Hz. Əli deyil...

Yalnız Həsən və Hüseyn deyil...

Yalnız Əshabi-kiram deyil...

Bütün hər kəs yetim qalmışdı.

Böyük itki ürəklərdə böyük yara açmışdı.

Bu yara dayanmadan qanayırdı.

Və bu yara dayanmadan qanayacaqdı...

**Onunla birlikdə 7-8 il...**

Sevimli Peyğəmbər babaları ilə necə də gözəl illər keçirmişdilər...

Onunla bağlı unuda bilməyəcəkləri bir çox xatirələri olmuşdu.

Həsən səkkiz, Hüseyn yeddi yaşına çatmışdı onunla...

Onsuz həyata yenə 7-8 yaşlarında başlayacaqdılar...

Bu günlərə gələnə qədər dərk etdikləri müddətcə həmişə onunla bərabər olmağa səy göstərmişdilər. Lakin yaşları kiçik olduğu üçün onunla bərabər heç bir səfərdə iştirak etməmişdilər.

Sevimli Peyğəmbər babaları səfərə çıxdığı zaman arxasından göz yaşları içində dua etməkdən başqa bir şey edə bilməmişdilər. Çünki əllərindən bundan başqa bir şey gəlməmişdi...

O yox idi artıq...

Onsuz qalmışdı nazənin güllər...

Və hələ onlar çox kiçik idilər...

7-8 yaşlarında ayrı düşmüşdülər ondan...

Can güllər Can Babalarından ayrı düşmüşdülər artıq...

Görüşmək də, qovuşmaq da axirət aləminə qalmışdı...

# Peyğəmbərimizdən Sonra

**Yaslı güllər...**

Gül balalar kimi bütün hər kəs pərişan olmuşdu...

Lakin bu nazənin güllər hər kəsdən daha çox kədərlənmişdilər.

Peyğəmbər babalarının vəfatı çox ağır gəlmişdi onlara.

Nazənin qəlbləri tab gətirmirdi bu dözülməz kədərə. İnci dənələri kimi göz yaşları süzülürdü yanaqlarından...

Sevimli Peyğəmbər babaları torpağa verildikdən sonra mübarək qəbrini ziyarət etməyə getdilər. Qəbrinin başında elə ağladılar ki, heç kim dözə bilmədi bu acı, hüznlü mənzərə qarşısında...

Könüllər yaslı, gözlər yaşlı idi artıq...

Bundan sonra dünya gözü ilə bir daha görə bilməyəcəkdilər Peyğəmbər babalarını...

Görüşmək axirətə qalmışdı artıq...

Yaslı könüllər, böyük bir hüznlə yanıb qovrulurdu...

Yaşlı gözlər və yaslı könüllər...

**Rəsulullahın xəlifəsi...**

Sevimli Peyğəmbər babalarının vəfatı ilə yetim qalmışdı hər kəs...

Başsız qalmışdı ummət...

Bu insanlara bir başçı lazım idi.

Peyğəmbərin sevimli səhabələri dərhal toplaşıb məşvərət edib məsləhətləşdikdən sonra Hz. Əbu Bəkri “xəlifə” seçdilər.

Və ona “Rəsulullahın Xəlifəsi” dedilər.

Hz. Əbu Bəkr sevimli Peyğəmbər babalarının ən yaxın dostu və ən sadiq yoldaşı idi.

Onun yerinə artıq ümməti xəlifə idarə edəcəkdi...

**Şəfqətli xəlifə...**

Hz. Əbu Bəkr iş başına keçən kimi dərhal fəaliyyətə başladı...

Lakin çox kədərli və pərişan olduğu hər halından bəlli olurdu. Çünki o da çox sevirdi Peyğəmbəri. Onun yaxın dostu idi.

Buna görə də öncə sevimli analarımızdan başlayaraq başsağlığı vermək üçün ziyarətlərə getdi.

Hz. Fatiməyə də xüsusi vaxt ayırdı. Çünki onun, Peyğəmbər atasını nə qədər çox istədiyini bilirdi.

Bu ziyarətdə Həsən ilə Hüseyn də yer aldılar.

Xəlifənin danışdıqlarını çox diqqətlə və göz yaşları içində dinlədilər...

Ürəkdən gələn duyğularını paylaşan xəlifə bu iki qönçə gülə döndü...

- Sevimli balalar, Peyğəmbərimiz (s.ə.s)-in sizi nə qədər çox sevdiyini bilir və sizə necə rəftar etdiyini görürdüm.

- Biz də çox sevirik Peyğəmbər babamızı...

- Elə bir baba sevilməzmi, övladlarım?

- Sevirdik onu, həm də çox sevirdik...

- Əlbəttə sevirdiniz. Sonsuza qədər də sevəcəksiniz...

- Əlbəttə sevəcəyik. Sonsuza qədər də sevəcəyik Peyğəmbər babamızı...

- Bilirəm, əzizlərim! Mən də elə bunun üçün gəlmişəm. Sizdən bir istəyim var.

- Buyur, ey Peyğəmbər babamızın xəlifəsi!

- Sizdən Allah və Peyğəmbər xətrinə istəyirəm bunu!

- Allah və Peyğəmbər eşqinə istə, istədiyini dərhal yerinə yetirək.

- Nə olursa-olsun, ən kiçik bir çətinliyiniz olmasını istəmərəm. Bunun üçün böyük-kiçik demədən bir müşkülünüz olduqda ilk müraciət edəcəyiniz adam mən olmalıyam. Siz, mənə Peyğəmbər dostumun əmanətlərisiniz. Yaxşımı, əzizlərim? Müşkülünüz nə olursa-olsun, mənə müraciət edin. Razılaşdıqmı, güllərim?!

-Allah razı olsun.

-Allah hamımızdan razı olsun. Amma sualıma cavab vermədiniz. Hər nə sıxıntı ilə qarşılaşsanız əvvəlcə mənim yanıma gələcəksiniz. Yaxşımı, cənnət gülləri?

-Yaxşı, Peyğəmbər babamızın dostu və xəlifəsi...

-Əsla unutmayın, Peyğəmbər dostumun əmanətisiniz mənə. Sizə yaxşılıq etmiş olmuram. Sadəcə vəzifəmi yerinə yetirmək istəyirəm. Can dostuma qarşı vəfa borcumu da ödəmək istəyirəm. Hansı saatda olursa-olsun, gecə-gündüz, hər an,

hər saniyə qapım üzünüzə açıqdır. Hər nə işiniz olursa-olsun, sizin qulluğunuzda hər vaxt hazıram...

Biz də əlimizdən gəldiyi qədər hər vaxt sənin yanındayıq, ey Peyğəmbər babamızın dostu və xəlifəsi...

Yalnız sizlərin dəstək və duanızla dik dura bilərik.

Şəfqətli xəlifə lazımi təminatı verdikdən sonra icazə istəyib getdi.

İşləri həddindən artıq çox idi çünki...

Peyğəmbərin hazırladığı, lakin göndərmək üçün ömrü vəfa etmədiyi Üsamə ordusunu cəbhəyə göndərəcəkdi.

Başqa işlər də görəcəkdi. Həqiqətən də xəlifənin çox işi var idi. Şəfqətli xəlifə hər şeyə böyük bir şəfqətlə yanaşırdı...

**Qönçə güllərin anaları xəstə yatağında...**

Qönçə güllər yenə hüzn və kədərə qərq olmuşdular. Çünki sevimli anaları da xəstələnmişdi.

İndiyə qədər elə də çox yatmayan sevimli anaları, indi yatdığı yerdən qalxa bilmirdi.

Yalnız Həsən ilə Hüseyn deyil, bütün ev böyük bir hüznə bürünmüşdü. Həsən ilə Hüseyn bu evin ən böyük övladları olduqları üçün, bacıları-

na böyüklük edərək onara təsəlli verir və onları sakitləşdirməyə çalışırdılar.

Bir tərəfdən də xəstə anaları üçün çox kədərlənirdilər.

Mümkün olduğu qədər sevimli analarının başının üstündən ayrılmır, analarının bir dediyini iki etmirdilər. Böyük bir fədakarlıq ilə xidmətlərini yerinə yetirməyə çalışırdılar.

Peyğəmbərlər Peyğəmbəri və xanımlar sultanı olan xanım qızı, Allahın aslanı Hz. Əlinin sevimli xanımı, qönçə güllərin sevimli anaları xəstə yatağına düşmüşdü artıq.

Həsən ilə Hüseyn sevimli anaların başına pərvanə kimi dolanırdılar...

Başda şəfqətli xəlifə olmaq üzrə gəlib-gedənlərin də ardı-arası kəsilmirdi...

**Yetim güllər...**

Sevimli Peyğəmbər babalarının vəfat etməsindən cəmi altı ay keçmişdi...

Sevimli analarının xəstəliyi də yaman ağırlaşmışdı...

Həsən ilə Hüseyn hələ sevimli Peyğəmbər babalarının vəfatına alışa bilməmişdilər ki, indi də sevimli anaları xəstə olmuşdu.

Xəstə olan kimi də dərhal əldən düşməyə başlamışdı. Bunun nə demək olduğunu çox yaxşı başa düşdükləri üçün, çarəsiz gözlərlə baxırdılar.

Cənnət qadınlarının hurisi Hz. Fatimə belə ağırlaşdıqda Hz. Əli bütün övladları ilə çölə çıxardı. Onların başlarını qarışdırmağa çalışardı. Sonra da uşaqların hamısını bir dostunun evində qoyaraq xəstə yatan sevimli xanımının yanına qaçardı.

Hz. Fatimə tamam əldən düşmüşdü. Əldən düşmüş olmasına baxmayaraq hələ də övladları üçün nə isə edə bilmək haqqında fikirləşirdi.

Hz. Əliyə vəsiyyətini etdikdən sonra onun da çölə çıxmasını istədi.

Gül balalar, sevimli analarının vəfat etdiyini öyrəndikdə pərişan oldular. Göz yaşları sel olub axdı. Lakin üsyan etmədilər, hədlərini aşmadılar. Səssizcə göz yaşı töküb için-için ağladılar. Sonra da səbir edərək dözdülər bu acıya.

Bir anda hamısının boynu bükülmüşdü...

Xüsusilə də Həsən ilə Hüseyn pərişan olmuşdular.

Həm babalarını, həm də analarını itirmişdilər. Hicran oxu nazənin könüllərinə elə sancılmışdı ki, artıq gülməyi unutmuşdular.

Sevimli anaları ölüm keçidindən keçərək, ölümsüzlüyə qovuşmuşdu...

Xəlifə başda olmaq üzrə hər kəs başsağlığı vermək üçün bu matəm evinə gəlib, hər birinə ayrı-ayrı səbir dilədilər.

Nazənin güllər yenə sağalmaz bir yara almışdılar.

Bu yara dayanmadan qanayırdı.

Bu yara dayanmadan qanayacaqdı...

**Doğma anadan fərqlənməyən gözəl ana...**

Həsən ilə Hüseyn çox qəribə bir duyğu yaşayırdılar. Çünki ataları ilə birlikdə sevimli analarının qəbrini ziyarət etməyə getmişdilər yenə.

Göz yaşları içində dua etdilər sevimli analarına...

Kiçik əlləri ilə sevimli analarının qəbir torpağını qarışdıraraq hıçqıra-hıçqıra ağladılar. O qədər ağladılar ki, sevimli ataları da dözə bilməyib, o da ağladı bu mənzərə qarşısında.

Bir yandan övladlarına təskinlik verməyə çalışan Hz. Əli, bir yandan da sevimli xanımının vəsiyyətini düşünürdü. Cənnət qadınlarının sultanı Hz. Fatimə xəstə yatağında son olaraq bunları demişdi:

- Ey Əli! Ey Peyğəmbər kürəkəni! Ey Allahın aslanı! Ey evimizin dirəyi! Səndən son bir istəyim olacaq. Edərsənmi?

- Ey Fatimə! Ey Peyğəmbər qızı! Ey cənnətlik xanım! Ey evimizin bircə gülü! Sən de, nə istəsən edərəm.

-Mən vəfat etdikdən sonra...

- İnşallah sağalarsan, deyə kəsmişdi sözünü.

-Allah bilər, amma mən bu dünyadan köçəcəyimi hiss edirəm. Bunun üçün sözümü kəsmədən dinləməyini və nə lazımdırsa onu etməyini istəyirəm səndən.

-Buyur, ey könlümün sultanı...

-Mən vəfat etdikdən sonra mütləq evlənməlisən.

-Sən nə deyirsən, ey Fatimə?

-Lütfən, sözümü kəsmədən dinlə!

-Yaxşı, səni dinləyirəm.

-Əgər evlənməsən həm özün, həm də sevimli övladlarım pərişan olarsınız. Bunun üçün evlənməyin şərtdir. Lakin sevimli balalarımı yad və qədirbilməz ögey bir ananın da ümidinə qoymaq istəmirəm. Bunun üçün rəhmətlik bacım Hz. Zeynəbin qızı Ümamə ilə evlənməyini istəyirəm. Ümamə bizim uşaqlarımızı çox istəyir. Onlara anasızlıqlarını hiss etdirməz. Bax, bunu istəyirəm səndən. Bu istəyim də son istəyimdir. Allah rizası və mənim xətrim üçün bu istəyimi yerinə yetir, ey Əli!..

Hz. Əli də göz yaşları içində “İnşallah sənin istədiyini yerinə yetirəcəyəm. Qəm eləmə!” deyə cavab vermişdi.

Bu vəsiyyət anını yenidən yaşayırmış kimi ürəyi ağzına gəldi...

Çünki beş yetimi ilə ortada qalmışdı...

Sevimli övladlarını da götürüb evinə qayıtdıqda evin tamamən boşalmış olduğunu hiss etdi. Hz. Fatimənin yoxluğu yandırırdı onları.

Bir tərəfdən dərdlərə dözməyə çalışarkən, bir yandan də sevimli övladlarına təsəlli verməyə çalışırdı. Lakin bu, belə davam edə bilməzdi. Bu, belə getməzdi.

Bu uşaqlara təcili bir ana lazım idi. Çünki hələ çox kiçik idi övladları.

Bir axsam hamısı birlikdə ikən onlarla danışmağı düşündü. Lakin mövzuya necə başlayacağını, sevimli balalarının bu məsələni necə anlayacaqlarını bilmir, buna görə də çox narahat olurdu.

Özünü toplayıb sözə başladı...

-Sevimli övladlarım, cənnət qadınlarının hurisi, sevimli xanımım Fatimənin mənə qalan əmanətləri! İndi sizinlə çox xüsusi bir şey barəsində danışacağam. Mənə hansınız cavab verərsiniz.

Hz. Hüseyn:

- Ən böyüyümüz Həsən olduğu üçün o cavab versin.

- Nə deyirsən Həsən?

- Buyur, atacan!

- Baxın, övladlarım! Sevimli ananızın vəfatından sonra çox kədərlənmisiniz. Sizin bu halınıza dözə bilmirəm. Mənə nə təklif edirsiniz, nə edim?

- Anamızın vəsiyyət etdiyini et, atacan!

- Ananızın vəsiyyətini bilirsinizmi?

- O gün mən və Hüseyn qapının yanında idik. Əziz anamızın vəsiyyətini eşitdik.

-Yaxşı, nə idi ananızın vəsiyyəti?

- Əziz anamız xəstə olub vəziyyəti xeyli ağırlaşanda sənə belə vəsiyyət etmişdi:

“Mən vəfat etdikdən sonra mütləq evlənməlisən. Əks təqdirdə həm özün, həm də mənim iki gözümün nuru övladlarım pərişan olarsınız. Lakin balalarımı yad bir ananın ümidinə qoymaq istəmirəm. Buna görə də rəhmətlik bacım Hz. Zeynəbin qızı Ümamə ilə evlənməyini istəyirəm. Ümaməni al və övladlarımızı anasız qoyma. Ümamə bunu bacarar.”

- Demək bunu siz də eşitmisiniz, hə?!

-Bəli, ata. Hz. Zeynəb xalamızın qızı Ümamə bacı, bizə analıq edər. Bununla sevimli anamızın da vəsiyyəti yerinə yetmiş olar.

-Yəni, bunu etməyimi qınamırsınız, elə deyilmi?

-O nə sözdür, ata? Biz səni heç qınayarıqmı?! Elə sevimli anamızın vəsiyyəti də belə idi.

-Gedib istəyək deyirsiniz, eləmi?

-İstəyirsiniz biz də gələk. Sənə kömək edərik.

-Buna ehtiyac yoxdur. Çünki ananız bu vəsiyyəti, Ümaməyə də edib. Ümamənin də məsələdən xəbəri var.

-Elə isə tezliklə gəlib anamız olsun.

-Siz bu işə razısınız, eləmi?

-Təbii ki, razıyıq, atacan. Dərhal gedib bu işi həll et.

-Yaxşı, aranızda etirazı olan varmı?

-Heç birimizin etirazı olmaz.

-Onda bu işi tezliklə həll edək deyirsiniz?

-Bəli.

-Sevimli övladlarım mənim! İnşallah xeyirlisi olar.

- İnşallah, atacan.

-Hz. Ümamə Hz. Fatimənin yerini doldurmaq üçün gəldi. Uşaqlarla çox yaxşı rəftar etdi. Belə ki, analarının yoxluğunu heç hiss etdirmədi.

Hz. Əli də bundan çox məmnun oldu.

Beləcə illər gəlib keçdi.

Yetim güllər yeni bir şəfqətli ana tapmışdılar.

Öz analarını da unutmamışdılar təbii ki.

Çünki onu heç vaxt unutmaq mümkün deyildi.

Onun yeri ayrı idi...

Bunun yeri ayrı...

## Xəlifələr Dövründə

### Vəfalı güllər...

Sevimli Peyğəmbər babalarından sonra müsəlmanlar Peyğəmbərimizin ən çox sevdiyi səhabələrindən biri olan Hz. Əbu Bəkri özlərinə xəlifə seçmişdilər.

O da bu mümtaz camaatı böyük bir sevgi və şəfqətlə bağrına basıb, ədalətlə idarə etməyə başlamışdı.

Bütün səhabələr kimi Həsən ilə Hüseyn də xəlifəyə beyət edib itaət etmişdilər. Günlər yeni bir gözəlliklə keçirdi.

Lakin onlar sevimli Peyğəmbər babalarını unutmamışdılar. Hər gün qəbrini ziyarət etməyə gedirdilər. Mübarək qəbrinə gedib dua edirdilər Peyğəmbər babaları üçün.

Daha sonra da sevimli analarının qəbrinə gedirdilər. Orada da çox duyğulanır, hər dəfə göz yaşı tökürdülər. Bu duyğularla sevimli analarına da dua edərək geriyə hüznlə qayıdırdılar.

Həm Peyğəmbər babalarına, həm də sevimli analarına qarşı çox vəfalı idi onlar.

Belə ki, onları xatırlamadan heç bir günləri keçmirdi...

Sevimli analarından sonra onun vəsiyyətinə əsasən analıq etmək üçün gələn Hz. Ümamə anaları ilə də, gözəl rəftar edirdilər. Hz. Ümamə də bu qönçə güllərin üstündə titrəyir, bir dediklərini iki etmirdi.

Evlərində heç bir problem yox idi.

Amma yenə də Peyğəmbər babalarını və sevimli analarını unuda bilmirdilər.

Başda sevimli Peyğəmbər babaları üçün, sonra heç görmədikləri sevimli Hz. Xədicə nənələri ücün, sonra da sevimli anaları üçün həmişə dua edirdilər...

Onların adına sədəqə verir, savabını onlara bağışladıqları yaxşılıqlar edirdilər...

Çünki onlar bir vəfa abidələri idi...

Vəfalı güllər idi onlar..

**Həssas müsəlmanlar...**

Hz. Əbu Bəkr (r.a) bu mümtaz insanları idarə edərkən, bir yandan da bu gözəl məmləkətin təhlükəsizliyini təmin etməyə çalışırdı.

Peyğəmbərimizin (s.ə.s) hazırladığı halda göndərməyə vaxt tapmadığı Üsamə Ordusunu səfərə göndərdi...

Bu vaxt, müxtəlif şəhərlərdə və bölgələrdə bəzi saxtakarlar peyda oldu. Peyğəmbərliklərini iddia edəcək qədər həddi aşdılar.

Bəzi üsyankarlar da Mədinəyə basqın etməyi planlaşdırırdılar.

Hz. Əbu Bəkr xəlifə vəsfi ilə bütün bunların hamısının öhdəsindən gəldi.

Bu uğurda hər yönü ilə həssas olan müsəlmanların çox böyük səyi olmuşdu. Bütün səhabələr birlik və bərabərlik içində hərəkət etmiş, xəlifələrini hər yöndən dəstəkləmişdilər.

Həsən ilə Hüseyn qardaşları hələ kiçik olduqları üçün, hadisələri izləyərək, nəticədən son dərəcə məmnun olmuşdular.

Üsamə Ordusu... Riddə döyüşləri... və baş verən digər hadisələr...

Baş verən hər bir hadisə Həsən ilə Hüseyn qardaşlarını fərqli yöndən inkişaf etdirirdi.

Hz. Əbu Bəkr (r.a) vəfat etdikdə Hz. Ömər (r.a) xəlifə seçildi.

Bu böyük xəlifə də Hz. Əbu Bəkrin qaldığı yerdən davam etməyə başladı. Belə ki, Hz. Ömər dövrü hər yöndən zirvə dörü oldu. Bu dövrdə də Həsən ilə Hüseyn qardaşları öhdələrinə düşən bütün vəzifələri böyük bir fədakarlıqla yerinə yetirirdilər.

Həssas müsəlmanlar idi onlar.

Nə vaxt və harada nə etmələri lazımdırsa onu o zaman və orada etməyə çalışırdılar.

İçində yaşadıqları cəmiyyətə laqeyd deyildilər.

Çünki həssas idi onlar...
Həssas müsəlmanlardan idilər...

**Hansımız daha yaxşı dəstəmaz alırıq?**

Çalışırdılar...

Qönçə güllər yeni qönçə güllər yetişdirərək, gecə-gündüz çalışırdılar.

Hər ikisi də, islam sarayının nadir bir bürcü olmuşdu.

O qədər çox şey bilirdilər ki, çox adam bəzi şeyləri artıq onlardan soruşub öyrənmək ehtiyacı duyurdu.

İslamı ən gözəl şəkildə yaşamaq onların ən mühüm xüsusiyyətləri idi.

Hər kəsə yardım etməyə çalışmaq da onlar üçün bir adət halına gəlmişdi.

Amma həmişə çox həssas davranır, heç kimin ləyaqətinə toxunmurdular.

Və günlərdən bir gün...

Peyğəmbər şəhəri Mədinə insanlarla dolub-daşırdı...

Gələnlər, gedənlər...

Bir-birilə dərin bir ehtiram və sevgi ilə salamlaşanlar...

Qucaqlaşanlar...

Bir-birinin hal-əhvalını soruşanlar...

Və namaz üçün hazırlaşanlar...

Azan oxunmaq üzrə idi.

Yaşlı bir adam da digər müsəlmanlar kimi məscid çeşməsində dəstəmaz alırdı. Lakin onun dəstəmaz almasında bir qəribəlik var idi. Bəzi şeyləri edə bilmir, bəzilərini də yanlış edirdi.

Onun bu halını görən Həsən ilə Hüseyn bir-birinə baxdılar.

Bu səhv düzəldilməli və əskiklik aradan qal-

dırılmalı idi. Lakin yaşlı bir adama bunu necə öyrədə bilərdilər? Bu səhvi o yaşlı kişinin qüruruna toxunmadan düzəltməli idilər. Amma necə?

Allah Rəsulunun tərbiyəsi ilə yetişmiş bu iki cənnət gülü öz aralarında razılaşdılar.

-Bax, Hüseyn, məni yaxşı dinlə.

-Buyur, qardaş!

-Biz ikimiz dəstəmaz almaq xüsusunda mübahisə edirmiş kimi hərəkət edək.

-Necə?

-Bu qoca kişinin yanına gedib "Bizə hakim ol" deyək.

-Başa düşmədim?

-"Bizim dəstəmaz almağımız bir-birindən fərqlidir. Hansımızın dəstəmz alma şəkli daha doğrudur?" deyə soruşaq.

-İndi başa düşdüm.

-O da bizim dəstəmaz almağımıza baxaraq öz səhvini anlayıb düzəldər.

-Bəs birdən anlamazsa?

-Anlayar, anlayar. Əsas odur ki, biz doğru və düzgün bir şəkildə dəstəmaz alaraq ona göstərək.

-Yaxşı qardaş, sənin dediyin kimi edək.

Səhv dəstəmaz alan adamın yanına gedib oturdular.

-Əmi, sizdən bir xahişimiz var. Bizə kömək edə bilərsinizmi?

Qoca, bu cənnət güllərini tanıyırdı. Şövqlə onlara səsləndi:

-Əlbəttə ki, kömək edərəm. Siz sevimli Peyğəmbərimizin nəvələri və cənnət gəncləri deyilsinizmi?

-Bəli, təşəkkür edirik.

-Müşkülünüz nədir?

-Dəstəmaz mövzusunda mübahisəmiz var. İkimiz də "mənim aldığım dəstəmaz daha doğrudur" deyirik. Siz indi bizə hakim olun, biz də növbə ilə dəstəmazımızı alaq. Hansımızın daha doğru dəstəmaz aldığımızı deyərsiniz. Səhv etdikdə səhvimizi düzəldin.

-Siz səhv etməzsiniz, hələ bir alın baxım.

-Əvvəlcə mən alıram.

Hz. Həsən köynəyinin qollarını çırmaladı. Dəstəmaz almaq üçün oturdu. Bismillah çəkərək, yavaş-yavaş və çox diqqətli bir şəkildə dəstəmaz almağa başladı.

Yaşlı kişi də Həsəni böyük bir diqqətlə izləyirdi.

Hz. Həsən dəstəmaz alıb qurtaranda yaşlı kişi artıq fikrə dalmışdı. Lakin bildirməməyə çalışırdı.

-İndi mənim növbəmdir.

Bunu deyib, Hz. Hüseyn də dəstəmaz almaq üçün oturdu. O da böyük bir diqqətlə və bütün qaydalarına həssaslıqla riayət edərək dəstəmazını aldı. Dəstəmaz alma işi qurtardıqda yaşlı kişi sanki bir az pərt olmuşdu.

-Bəli əmi, indi isə söz sizindir.

-Hansımızın dəstəmazı daha düzgündür?

Yaşlı kişi güllər kimi gülümsəyən bu iki cənnət gülünə böyük bir şəfqətlə baxdı.

-Ey Peyğəmbər gülləri! Ey Fatimeyi-Zəhranın quzuları! Ey Hz. Əlinin igidləri! Ey seçkinlərin seçkinləri! Ey sevimlilərin sevimliləri! Allah sizdən razı olsun. Bu gözəl və incə hərəkətinizlə məni də irşad etdiniz. Hər ikinizin də dəstəmazı çox gözəl və düzgündür. Əsl yanlışı olan mənəm. Peyğəmbər nəvələri və cənnət gülləri olduğunuzu yenə böyük bir həssaslıqla nümayiş etdirdiniz. Sizin bu gözəl təbliğ metodunuzu ömrüm vəfa etdikcə unutmayacam. Siz mənim səhvimi düzəltdiniz. Allah da sizi hər iki dünyada əziz etsin.

Bu vaxt azan oxundu...

Hamısı birlikdə namaz üçün məscidə girdilər...

Bax, bu da gül gənclər!

Peyğəmbər gülləri...

Hz. Əli ilə Hz. Fatimənin övladları...

Və nur dövrünün nur insanları...

O bəxtiyar insanlar könüllərini həqiqət inciləri ilə doldurmuşdular. İslamı bütün incəlikləri ilə nöqtəsinə qədər yaşamağa çalışırdılar...

Onlar belə idilər. Bizim kimi yalnız danışmaqla kifayətlənmirdilər. Etməli olduqları bir işi edirdilər. Öyrənməli olduqları xüsusları da dərhal öyrənməyə çalışırdılar.

Quranın "Tələsin" dediyi yerə tələsirdilər, "Dayan" dediyi yerdə dayanırdılar. Bütün bəşəriyyətə islam çeşməsindən əbədiyyət şərbəti təqdim edirdilər.

Bu metodla, qısa bir müddətdə bütün dünya islam hakimiyyəti altına girdi. Çünki islam Allahın nizamı idi. Allahın nizamı da əlbəttə ki, bütün nizamlardan üstün olacaqdı.

Həqiqi mənada müsəlman olanlar və imanlarını kamala çatdıranlar dünyaya xoşbəxtlik və firavanlıq gətirmişdilər.

Gül gənclər gül dövründə yaşayırdılar.

Dildən dilə, könüldən könülə gül ötürürdülər.

**Örnək güllər...**

Hər kəs tərəfindən çox sevilən Hz. Həsən ilə Hz. Hüseyn artıq yetkin bir gənc olmuşdular.

Cənnət gənclərinin seyidləri, gənclik çağlarının ən məhsuldar dövrünü yaşayırdılar.

Peyğəmbər babalarını və sevimli analarını itirdikləri gündən bəri Quran və Sünnəyə daha da sıx sarılır, daha da gözəl yaşamağa çalışırdılar.

Çünki onların boşluğunu Quran və Sünnə ilə doldurmağa səy göstərirdilər.

Örnək güllər hər kəsə örnək olacaq bir həyat yaşayırdılar...

**Ədəb və həya inciləri...**

Həsən bir başqa, Hüseynsə tamam başqa bir gözəl idi...

Həsən bir başqa ədəb və həya incisi idi, Hüseyn bir başqa...

Onlar, Peyğəmbər nəvələri idi...

Onlar, Nur Peyğəmbərin nurları...

Onlar, gül anarının gülləri...

Onlar, hər kəsin sevimliləri idi...

Aradan illər keçəcəkdi. Hz. Həsən ümmətin ba-

şına keçəcək, xəlifə vəsfi ilə şəfqət və mərhəmətdə də zirvəyə çıxacaqdı...

Bu günün hal və hərəkətləri, görəsən o günlər üçün bir hazırlıq idimi?

Bir gün gələcəkdi... Bu günün gül uşağı, sabahın ədalətli idarəçisi Hz. Həsən xəlifə olaraq ümməti idarə edərkən bir adam gələcəkdi hüzuruna.

Haqsızlığa düçar olmuş qərib bir məzlum olaraq xəlifənin hüzuruna gələcək, zalımdan haqqının alınmasını istəyəcəkdi. Bunun üçün də bir məktub gətirəcəkdi xəlifəyə.

-Mübarək hüzurunuzda danışıb şikayət etməkdən həya etdiyim üçün şikayətimi bu məktuba yazdım. Oxuyun və mənə kömək edin.

Qarşısında boynunu büküb məzlum-məzlum dayanan adamdan məktubunu alan Hz. Həsən sakitləşdirəcəkdi o qəribi.

"Haydı sən get. Şikayətin müzakirə ediləcək və inşallah problemin həll olacaq!"

O anda hüzurunda olanlardan biri maraq ilə soruşacaqdı və tarixin bənzərinə bir daha şahid ola bilməyəcəyi olduqca həssas bir mövzu bütün gözəlliyi ilə açılacaqdı...

-Ey Peyğəmbərimizin nazlı nəvəsi! Ey gözümüzün nuru! Ey başımızın tacı! Heç belə etməzdiniz. Adamın məktubunu niyə oxumadınız?

-Oxumaq və problemini həll etmək üçün aldım axı.

-Ancaq məktubu heç açıb oxumadan adamı yola saldınız.

-Həmin o fağır adamın qarşımda sıxılmasına və narahat olmasına könlüm razı olmadı!

-Yaxşı bəs onun dərdinə bir çarə qılmayacaqsınızmı?

-Mənim ən əsas vəzifələrimdən biri də dərdlilərin dərdlərinə dərman olmaq deyilmi?

-Yaxşı, bəs nə üçün göndərdiniz adamı? Dinləsəydiniz olmazdımı? Heç olmazsa məktubunu oxuyana qədər hüzurunda saxlayaydın.

-Məktubunu oxuyana qədər onu hüzurumda saxlasaydım, onun çəkdiyi sıxıntıya və xəcalətə görə Allah məni məsul tutardı. Bundan qorxaraq hüzurumda saxlaya bilmədim!

Bu seçkin cənnət gülləri, bax belə günlər üçün də özlərini yetişdirirdilər... Çünki onlar ədəb, əxlaq və həya inciləri idilər... O günlərə əvvəlcədən hazırlıq görürdülər...

**Peyğəmbər babamız geri qayıtdı sanki!**

Günlər, gecələr, həftələr, aylar, illər su kimi axıb gedirdi...

Gül gənclər daha da gözəlləşmişdilər, daha da gözəl bir örnək olmuşdular...

Yenə günlərdən bir gün idi...

Daha dogrusu bir gecə...

Sübhə doğru bir gecə...

Hz. Həsən ilə Hz. Hüseyn bu gün bir az daha erkən qalxmış və məscidə yollanmışdılar.

Hələ azan da oxunmamışdı.

Əvvəlcə Peyğəmbər babalarının mübarək qəbrini ziyarət edəcəkdilər.

Lakin birdən qəribə bir şey gördülər?

Qəbrin yanında biri vardı və qəbrin üstünə qapanaraq səssizcə hıçqırırdı.

Yanına çatanda onu tanıdılar.

-Aaaa!.. Peyğəmbər babamızın sevimli müəzzini Hz. Bilal!..

Hz. Bilal heç kimə görünmək istəmirdi. Ta Şamdan gəlmişdi.

Hz. Peyğəmbərin mübarək qəbrini ziyarət edib, yenə heç kimin gözünə görünmədən qayıdacaqdı.

Lakin Həsən və Hüseyn qardaşlarıyla qarşılaşmışdı. Böyük bir həsrət və məhəbbətlə qucaqlaşdılar. Cənnət gülləri dərhal ondan xahiş etdilər...

-Azan oxumağını istəyirik, ey Peyğəmbər bülbülü!

-Sevimli Peyğəmbərimizin vəfatından sonra azan oxuya bilmədiyimi siz də bilirsiniz.

-Bilirik. Amma xahiş edirik. Nə olar bizim sözümüzü yerə salma.

-Ey Peyğəmbər gülləri! Sizin sözünüzü heç vaxt yerə salmaq istəmərəm. Ancaq məni üzrlü sayın.

-Nə olar, sözümüzü yerə salma. Azan oxu, ey Peyğəmbər bülbülü...

Hz. Bilal nə qədər dil töksə də onları razı sala bilmədi. Bu cənnət güllərini də incitmək istəmirdi.

-İki qönçə gül, ikisi də bir ağızdan:

-Azan oxu, ey Bilal!

Hz. Bilal elə bir ah çəkdi ki, heç bir qəlb buna dözə bilməzdi. Göz yaşları sel olub axdı.

Peyğəmbər nəvələri, bu iki qönçə gül bilərəkdən bu cümləni söyləmişdilər.

Çünki Sevimli Peyğəmbər babaları həmişə Bilala belə deyərdi; “Azan oxu, ey Bilal!”

Hz. Bilal bu şirin cümlənin şirin xatirəsi içində hıçqıra-hıçqıra ağlayırdı.

Lakin Həsən ilə Hüseyn təkid edirdilər; “Azan oxu, ey Bilal!”...

Artıq dözməyə halı qalmayan Hz. Bilal bu iki qönçə gülün sözünü yerə salmamaq üçün azan oxumağa başladı.

Peyğəmbər bülbülü Hz. Bilalın səsi ilə oyananlar böyük bir coşqu ilə məscidə qaçmağa başladılar.

Kimisi evinin qapısından, kimisi pəncərəsindən, kimisi də eyvandan atılırdı...

Bir məhəbbət seli axmağa başlamışdı Peyğəmbər məscidinə doğru...

Elə bir mənzərə yaranmışdı ki, sanki Peyğəmbərimiz mübarək qəbrindən qalxıb gəlmişdi...

Həsən ilə Hüseyn qardaşları belə, sevinclə hayqırmağa başlamışdılar...

Peyğəmbər babamız geri qayıtdı sanki!

Yoxsa Peyğəmbər babamız qayıtdımı?

Peyğəmbər babamıza can qurban!

Məscidi ağzına qədər dolduran camaatı da hıçqırıq tutmuşdu...

-Peyğəmbərimizə can qurban, can...

O gün Mədinə tamam başqa səhər yaşadı...

Buna cənnət gülləri səbəb olmuşdu.

Cənnətdən bir səhnə yaşamışdılar sanki...

Hər günü başqa bir gözəlliklə yaşamağa çalı-

şan bu iki nazənin gül həmin günü bambaşqa yaşamışdılar.

Daha doğrusu, onlar səbəb olmuşdular bu gözəl günə...

Onlar Peyğəmbər nəvələriydilər axı...

Onlar Hz. Əli ilə Hz. Fatimənin gülləri idilər.

Onlar cənnət bağçasının nadir gülləri, bütün əshabın da göz bəbəkləri idilər.

Onlar Həsən ilə Hüseyndir...

İslamı ən yaxşı bilən...

Ən gözəl yaşayan...

Gözəl örnək olan...

Sevən və sevilən canlar idi onlar...

Xəlifələr dövrünü belə yaşadılar.

Xəlifələr də bu cənnət güllərinə xüsusi bir etina göstərirdilər.

Hər biri onların üstündə titrəyirdi.

Cənnət gülləri də buna artıqlaması ilə layiq idi təbii ki...

## Sevimli dayımız...

Sevimli nənələri Hz. Xədicəni heç görməmişdilər. O, lap çoxdan, Məkkə dövründə vəfat etmişdi. Onu görüb tanıma şərəfinə nail ola bilməmişdilər.

Lakin onun haqqında sevimli Peyğəmbər babalarından çox eşitmişdilər. Çox sey oyrənmişdilər, Peyğəmbər babaları qədər olmasa da, çox sevmişdilər onu...

Peyğəmbər babalarının danışdığına görə tayıbərabəri yox imiş sevimli nənələrinin.

Məhz bu xanımlar sultanı, sevimli nənələri Peyğəmbər babaları ilə evlənməzdən əvvəl iki evlilik yaşamış və bu evliliklərindən də iki övladı olmuşdu. Hind ilə Halə.

Hind adı oralarda həm qızlara, həm də oğlanlara verilən bir ad idi. Hz. Hind onların dayıları, Hz. Halə də xalaları idi...

Hz. Xədicə anamız Peyğəmbərimizlə evləndikdən sonra ondan da altı övladı dünyaya gəlmişdi.

Dayıları Qasım ilə Abdullah, körpə ikən vəfat etmişdilər. Lakin Hz. Zeynəb, Hz. Ruqiyyə və Hz. Ümmü Gülsüm xalaları böyüyüb evlənmişdilər. Bir də onların anası Hz. Fatimə. O da hər iki gəncin anası idi.

Bunlardan da Hz. Ruqiyyə xalalarını heç xatırlamırdılar. Çünki o da vəfat edərkən Həsən və Hüseyn qardaşları hələ dünyaya gəlməmişdilər.

Hz. Zeynəb ilə Hz. Ümmü Gülsüm xalalarını isə bir xəyal kimi güclə xatırlaya bilirdilər.

Amma Hz. Hind dayıları ilə Hz. Halə xalalarını çox yaxşı tanıyırdılar. Çünki onlar hələ yaşayırdılar...

Sevimli dayıları və xalaları ilə birlikdə olmaqdan həzz alırdılar. Xüsusilə Hz. Hind dayılarının yeri onların gözlərində və könüllərində tamam başqa idi.

Bir çox özünəməxsus xüsusiyyəti olan Hind dayıları Peyğəmbər babalarını çox sevirdi. Sevimli Peyğəmbər babalarını ən yaxşı tanıyan və çox da gözəl tərif edənlərdən biri də bu gözəl və özəl dayı idi.

Buna görə də çox sevirdilər dayıları Hz. Hindi...

Çünki o, Peyğəmbər babalarını çox yaxşı tərif edirdi.

Dəfələrlə Peyğəmbər babaları haqqında danışmışdı onlara...

Sevimli dayılarından Peyğəmbər babaları haqqında eşitmək ayrı bir zövq verirdi Həsən və Hüseyn qardaşlarına...

Tez-tez onu sevimli babaları haqqında danışdırıb həvəslə qulaq asardılar...

Çünki onun üçün çox darıxırdılar...

Çox darıxırdılar...

**Peyğəmbər həsrəti...**

Darıxırdılar...

Həm də çox darıxırdılar...

Peyğəmbər babaları üçün o qədər darıxırdılar ki, tərif etmək mümkün deyildi.

Onun həsrəti ilə yanıb qovrulurdular.

O zaman həyatda olan Peyğəmbər xanımlarının, yəni sevimli analarımızın yanına gedib, Peyğəmbər babaları haqqında nə isə soruşaraq həsrətlərinə su səpmək istəyirdilər.

Sadəcə sevimli analarımızdan deyil, Peyğəm-

bər babalarını ən yaxından tanıyan kim varsa onlardan da soruşardılar. Dərhal onun yanına özlərini çatdırıb Peyğəmbər babaları haqqında danışmalarını istəyərdilər...

Günlər beləcə davam edirdi...

Çünki Peyğəmbər həsrəti bütün varlıqlarını bürümüşdü...

**Bizə Peyğəmbərimizdən danış...**

Peyğəmbər babasının həsrəti ilə yanan Hz. Həsən bir gün yenə dayısı Hz. Hindin yanına getdi. Hal-əhval soruşduqdan sonra böyük bir həsrət və sevgi ilə dedi:

-Peyğəmbər babamızdan danışarsanmı, dayıcan?

- Ah mənim sevimli Həsənim! Onu heç görməmiş kimi danışırsan! Sən onu görmək və onunla birlikdə olmaq şərəfinə nail oldun axı. Sanki onu yaxşı tanıyırsan. Çox gözəl xatirələrin var Peyğəmbər babanla...

-Olsun, sən yenə də mənə ondan danış. Çünki mən o vaxt hələ çox kiçik idim. Hər şeyi ağlım kəsmirdi. Həm də ki, sən onun vəsflərini çox yaxşı bilirsən. Onun o üstün vəsflərindən danış, nə olar.

-Onun haqqında dəfələrlə danışmışam sizə!

-Elədir, dayıcan, səni çox danışdırmışıq. Amma yenə də dinləmək istəyirəm. Çünki sən onu çox gözəl tərif edirsən, dayıcan!

-Peyğəmbərimizdən danışaraq onu layiqincə tərif etməyə onun bütün hal və hərəkətlərini izah etməyə kimin həddi çatar? Biz hara, onu tərif etmək hara?

Amma siz də elə hey ondan danışmağımı istəyirsiniz.

-Biz buna tərif etmək deyil, sadəcə başa düşdüyümüzü nəql etmək desək olmazmı?

-Nə deyirsən de, amma ondan danış...

-Onu anlamaq, tərif etmək, tərif etməyə calışmaq... Daha doğrusu, sözlərlə onun şəkilini təsvir etməyə çalışmaq... Bizim etdiyimiz yalnız budur, sevimli bacı oğlu.

- Mən də elə bunu istəyirəm sevimli dayıcan.

- Onu tərif etməkmi, yoxsa okeandan bir damla almaqmı?

Tərif et nə olar, tərif et, sevimli dayım, sevimli Peyğəmbər babamdan danış mənə...

- Yaxşı sevimli Həsənim.

Sevimli Peyğəmbər baban sizi çox sevərdi. Belə bir sevgilini incitmək olmaz...

-Danış dayıcan, sevimli Peyğəmbər babamdan danış mənə... apar məni onun yanına...

- Böyük bir zövqlə, sevimli Həsənim. Böyük bir zövq və şərəflə danışaram. Lakin sən də yaxşı dinlə, yaxşı yadında saxla və bunu başqalarına da danış, olarmı?

-Olar, dayıcan! Mən də böyük bir şövq və məhəbbət ilə edərəm bunu...

-Harasından başlamağımı istəyirsən?

-Sira ilə hamısını danış.

-Yaxşı, sevimli Həsənim.

Peyğəmbər sevgisiylə dolub daşan dayısı Hz. Hind də böyük bir ehtiram, sevgi və məhəbbətlə Peyğəmbərimizin bədən quruluşundan başlayıb, sıra ilə danışmağa başladı.

-Rəsuli-Əkrəm (s.ə.s) yaradılışdan heybətli və vüqarlı idi. Mübarək üzü bədirlənmiş ayın parlaqlığı kimi nur saçardı. Orta boyludan uzun, incə, zərif və uzundan qısa olub, mübarək başı bir az böyük idi. Saçları nə qıvrım idi, nə də düz. Əgər öz-özlüyünə iki tərəfə ayrılmışlarsa onları başının iki yanına darayar, ayırmazdı. Uzatdığı təqdirdə saçları qulaq məmələrini keçərdi.

Peyğəmbərimizin rəngi nurani ağ idi. Alnı açıq idi. Qaşları aypara kimi olub, gur və bir-biri-

nə yaxın idi. Çatma qaşlı deyildi. İki qaşının arasında bir damar var idi ki, əsəbi olduğu hallarda qabarar, adi vaxtlarda isə görünməzdi. O, hər şey üçün deyil, haqsızlıq edildikdə yalnız Allah üçün qəzəblənərdi.

Burnunun üst tərəfi bir az böyük olub, üstü incə idi. Mübarək burnunun üstündə onu yüksək göstərən bir nur var idi ki, diqqətlə baxmayanlar Peyğəmbərimizi qartal burunlu zənn edərdilər.

Mübarək saqqalı sıx və gur, yanaqları isə yumru deyil, düz idi. Mübarək ağzı geniş, qabaq dişlərinin arası seyrək idi. Sinə çuxuru ilə göbək arasında incə bir xətt kimi uzanan tüklər var idi. Boynu saf mərmərdən yonulan heykəllərin boyu kimi gümüş parlaqlığında idi.

Vücudunun bütün orqanları bir-biri ilə uyğun olub, yaraşıqlı bir bədən quruluşuna sahib idi. Nə kök, nə də çox arıq idi. Mübarək qarnı ilə sinəsi eyni xətt üzrə idi. Yəni qarnı çıxmamışdı. Sinəsi ilə iki çiyni arası geniş, oynaqları qalın, vücudunun açıq yerləri çox nurlu idi. Sinə çuxuru ilə göbəyinin arasını birləşdirən tüklər incə, uzun bir xətt kimi uzanırdı. Çiyinlərinin və sinəsinin üst tərəfləri isə bir az tüklü idi.

Biləkləri uzun, əl ayaları geniş, əl və ayaqları qalın, barmaqları isə uzun idi. Ayaqlarının altı çökək idi. (Yəni düz dabanlı deyildi). Ayaqlarının

üstü isə hamar idi. Belə ki, üstünə su tökülsə yağ kimi axıb gedərdi. Yeriyərkən (ayaqlarını) yerdən bir az qaldırıb, azacıq önə doğru əyilərək yeriyərdi.

Ayaqlarını səs çıxarıb, toz qaldıracaq şəkildə yerə sərt vurmazdı. Addımlarını uzun və ardıcıl atmaqla yanaşı, sükunət və təmkin içində yeriyərdi.

Yeriyərkən sanki hündür bir yerdən enirmiş kimi bir görünüşü olardı.

Bir tərəfə çevrilib baxdıqda bütün vücudu ilə birlikdə dönərdi. Lüzum olmadan sağa-sola baxmazdı.

Yerə baxması göyə baxmasından daha çox olardı. Əksər vaxtlarda göz ucu ilə baxardı.

Səhabələri ilə birlikdə gedərkən, onları önə keçirər, özü arxada gedərdi. Yolda qarşılaşdığı kəslərə onlardan əvvəl salam verərdi.

Hz. Hind burada dayanıb sevimli bacısı oğluna baxdı. Sevimli bacısı oğlu bir başqa aləmə dalmışdı sanki. Gözlərindən axan yaşlar inci dənələri kimi damlayırdı.

-Bu nə haldır sevimli Həsənim?

-!..

-Həsən?

-!..

Sən məni dinləmirsənmi, bacıoğlu?

-!..

Uzaq bir diyara getmiş və geri qayıda bilməyən bir adam kimi olan Hz. Həsən, dayısının ona toxunması ilə yuxudan oyanar kimi oldu.

-Bu halın nədir belə, bacıoğlu?

-Ah sevimli dayım, ah! Sən bunları danışarkən, mən haralara getdim bir bilsən!

-Haralara getdin?

-Uzun illər bundan əvvələ getdim, dayıcan. Peyğəmbər babamla birlikdə olduğum günlərə getdim. Sən danışarkən mən onunla birlikdə idim sanki.

-Sənin onu nə qədər çox sevdiyini hamımız bilirik.

-Belə bir baba sevilməzmi dayıcan? Belə bir Peyğəmbər baba sevilməzmi heç?

-Sevilər əziz Həsən, əlbəttə ki, sevilər.

-Sən də necə də gözəl danışdın dayıcan.

-O, gözəllər gözəli idi, əziz Həsən!

-Dayıcan, Peyğəmbər babamın vəsflərini və bütün xüsusiyyətlərini ən çox bilənlərdən biri də sənsən. Sevimli babamın danışıq tərzindən də mənə bəhs edərsənmi?

-Peyğəmbərimiz (s.ə.s) (əşyaların həqiqətini və hadisələrin pərdə arxasını müşahidə etdiyi üçün) daima hüznlü idi və həmişə təfəkkür edərdi. İstirahət etmək üçün ayırdığı xüsusi bir vaxtı yox idi. Susqun bir təbiəti var idi. Ehtiyac hiss etmədikcə lüzumsuz yerə danışmazdı.

Sözə Allahın adını anaraq başlayar və yenə Onun adını anaraq sözünü qurtarardı. (Bəsmələ və hamdələ). Az sözlə çox məna ifadə edəcək şəkildə danışardı. Yəni “cəvamiul-kəlim” idi. Mübarək sözlərinin hamısı, mütləq bir gerçəyi ifadə edərdi. Sözlərində nə bir artıqlıq, nə də bir əskiklik olardı. Danışarkən həmsöhbətinə nə kobud davranar, nə də onu təhqir edərdi.

Az və dəyərsiz də olsa, bütün nemətləri təzim edərdi, heç bir şəkildə onu pisləməzdi. Bundan başqa heç bir yemək və içkini (halal içki) tənqid etmədiyi kimi, çox da öyməzdi.

Heç bir şəkildə dünya və dünya malı onu qəzəbləndirib hirsləndirməmişdir. Ancaq bir haqq, bir qanun tapdalanarsa, haqq-ədalət yerini tapana qədər nə əsəbi sakitləşər, nə də hər hansı bir kimsə qəzəbinə qarşı gələ bilərdi. Bununla yanaşı öz nəfsi üçün heç kimə qəzəblənib əsəbiləşdiyi və onun intiqamını almaq yoluna əl atdığı heç olmamışdır. Bir şeyə işarə etmək istədiyi vaxt barmaqları ilə deyil, bütün əli ilə işarə edərdi.

Heyrət verən bir vəziyyət qarşısında əllərini səmaya doğru açardı. Danışarkən əllərini də hərəkət etdirər, sağ əlinin ovcu ilə sol əlinin baş barmağının içinə vurardı. Hətta qəzəbləndiyi vaxt həmsöhbətini daim bağışlayar, hətta bu barədə son dərəcə həssas davranardı. Sevindiyi vaxt isə mübarək gözlərini yumardı.

Gülümsəməsi təbəssüm şəklində olub, güldükdə saf və aydın inci dənələrini xatırladan mübarək dişləri görünərdi.

-Ah dayıcan, ah! Yenə oralara apardın məni.

-Danışmağımı sən istədin.

-Sevimli Peyğəmbər babamı necə də gözəl tərif edirsən.

-Hər şeydən və hər kəsdən daha gözəl olan bu qədər böyük bir Peyğəmbəri tərif etmək əlbəttə ki, çox çətindir. Mən, ancaq bu qədərini tərif edə bildim.

-Yenə də çox gözəl danışdın, dayıcan. Çox təşəkkür edirəm.

-Sən bu öyrəndiklərini başqalarına da danış ki, hər kəs gözəl bir şəkildə tanısın Peyğəmbərimizi...

-Olar, dayıcan, danışaram. Həm də böyük bir zövqlə...

Hz. Həsən dayısının danışması ilə o günlərə gedib çıxmışdı sanki. Peyğəmbər babası üçün çox darıxmışdı. Çünki onu çox sevirdi.

Gedib bunları qardaşı Hüseynə də danışmağa qərar verdi.

Hz. Hüseyn bağçada nə iləsə məşğul idi. Yanına gedib salam verdi. Sonra da sevinc və həyəcanla danışmağa başladı.

-Bilirsən, Hüseyn, mən nələr öyrənmişəm?

-Deməsən haradan bilərəm?

-Peyğəmbər babamızın hilyəsini və digər vəsflərini öyrəndim.

-Kimdən öyrəndin?

-Dayımız Hz. Hinddən.

-Nə qədərini öyrəndin görəsən?

-Başa düşmədim!?

-Səndən əvvəl mən soruşdum dayımızdan. Hətta onunla da kifayətlənməyərək digər böyük səhabələrdən də soruşmuşdum.

-Mənim niyə bundan xəbərim olmayıb?

-Elə mən özüm də təzə öyrənmişəm.

-Yaxşı sən nə qədərini öyrənə bildin görəsən?

-Mən bir çox şeylə bərabər, Peyğəmbər babamızın ailə içində və çöldəki həyatı ilə birlikdə onun şəmaili haqqında da öyrəndim.

-Mənə də danışarsanmı?

-Təbii ki, danışaram. Amma bir şərtim var.

-Nədir o şərt elə?

-Sən də nəyi, nə qədər öyrənmisənsə, onların hamısını mənə danışmalısan.

-Sevimli Peyğəmbər babamızdan bəhs etmək ayrı bir zövq verir mənə. Danışaram təbii ki. Nələri öyrənmişəmsə hamısını danışaram. Sən də heç birini ötürmədən hamısını mənə danış.

-Elə isə qulaq as.

-Yalnız qulaqlarımla deyil, könlüm ilə də dinləyirəm.

-Mən ən çox bilgini atamızdan aldım. Atamızdan Peyğəmbərimizin ev həyatı haqqında soruşduqda çox şeylər danışdı mənə...

-Sən də mənə danış onları, nə olar.

-Danışıram, dinlə. Üstəlik nə qədər və necə öyrənmişəmsə, o qədər və o şəkildə danışacağam.

-Yalnız qulağım ilə deyil, can qulağımla da dinləyirəm...

-Peyğəmbərimiz (s.ə.s) evinə gəldikdə, evdə keçirəcəyi vaxtı üç yerə bölərdi. Bunların bir qismini ibadətə, bir qismini ailə üzvlərinə, bir qismini də özünə ayırardı. Özünə ayırdığı vaxtı isə, yenidən iki yerə ayıraraq bir qismində istirahət edər, geri qalanında da qonaq qəbul edərdi. O,

bunu hüzuruna qəbul etdiyi seçkinlər vasitəsilə edərdi ki, bunlar öyrəndiklərini, onun hüzurundan çıxdıqdan sonra hər kəsə danışsınlar.

Rəsulullah (s.ə.s) əshabından heç bir şeyi gizlətməzdi. Fəzilət və təqva əhli olan ziyarətçilərini adəti olaraq birinci qəbul edərdi. Qonaqlarına ayırdığı vaxt, onların nəsil-nəcabətlərinə görə deyil, dindəki üstünlüklərinə görə olardı. Evinə gələnlərin kimisinin bir, kimisinin iki, kimisinin də daha çox istəyi olardı. Peyğəmbərimiz (s.ə.s) onların hamısı ilə maraqlanar, özünə birbaşa soruşulan suallarla, özünə vasitəçi ilə göndərilən suallara, soruşanların və ümmətin halına uyğun gələcək şəkildə cavablar verər və ardınca da belə deyərdi:

“Burada gorüb eşitdiklərinizi burada olmayanlara da çatdırın. Ehtiyaclarını mənə bildirmək imkanı olmayan kəslərin istəklərini də mənə çatdırın. Kim ki, ehtiyacını çatdırmaq gücü olmayanların istəklərini bir başqası ilə çatdırarsa, Allah qiyamət günündə onun da sirat körpüsünü əmin addımlarla keçməsini təmin edər.”

Həzrət Peyğəmbərin hüzurunda qətiyyən bunlardan başqa bir şey danışılmaz, başqasının da bunun xaricində bir sey danışmasına icazə verilməzdi. Rəsulullahın hüzuruna girənlər elm və hikmətə susamış olaraq girər, doymuş olaraq ay-

rılar və həmişə hər biri xeyirə gedən bir yol göstəricisi olaraq çıxardılar.

- Hamısı bu qədərdirmi?

- Bu qədər olarmı, çox şey öyrəndim Allahın izni ilə...

- Onları da danısarsanmı?

- Danışaram əlbəttə ki, çünki bu, eyni zamanda bir vəzifədir.

- Danış elə isə.

- Atamızdan, Peyğəmbər babamızın çöldə necə davrandığı barədə soruşdum.

- Bu da çox əhəmiyyətli bir mövzudur.

- Peyğəmbər babamızın çöldəki davranışı haqqında da atamız bu şeyləri danışdı.

- Qurban olaram mən, o Peyğəmbər babamıza...

- Peyğəmbərimiz (s.ə.s) mühüm bir işi olmadıqca danışmazdı. Ətrafındakılar ilə həmişə dostca davranar, onları qorxudacaq hər hansı bir davranışı olmazdı. Hər qrupun seçkinləri ilə xüsusi maraqlanar və onları başçı təyin edərdi. İnsanları gözü kimi qoruyar, heç birindən gülər üz və şirin dili əsirgəməz.

Səhabələrini görmədikdə axtarıb soruşar, vəziyyətlərini xəbər alardı. Qarşılaşdığı insanlara

hal-xətir soruşar, hər biri ilə yaxından maraqlanardı. Gözəl olan hər şeyi bəyəndiyini ifadə edər və ona dəstək verərdi. Pis olan şeyə də əks reaksiya verər və onu qınayıcı bir münasibət göstərərdi. Peyğəmbərimizin (s.ə.s) bütün hərəkətləri mütənasib idi. Bir biri ilə uyğun gəlməyən heç bir davranışı yox idi. Səhabələrinin özlərinə aid işlərində qəflətə qapılmaları və ya bezginlik duymaları narahatçılığı ilə onların yerinə özü ayıq-sayıq olardı həmişə. O, hər məsələdə hazırlıqlı idi. Hər problemin çarəsini tapardı. Onun yanında insanların ən fəzilətlisi başqalarına qarşı ən çox yaxşılıq edənlər idi. Mərtəbəsi ən yüksək olanlar da, xalqın sıxıntılarına ən yaxşı şəkildə ortaq olan və onlara yardım əlini uzadan kəslər idi.

Necə də gözəl danışdın, Hüseyn. Başqa nələr öyrəndin?

Atamızdan  Peyğəmbər babamızın müzakirələri və söhbət məclisləri haqqında da soruşdum.

-Onlar haqqında da danışa bilərsənmi?

-Danışaram... Peyğəmbərimizin (s.ə.s) oturması da, durması da zikr ilə olardı. Bir yerə yığışıb oturmuş bir camaatın yanına gəldikdə, baş tərəfə keçməz, məclisin hər hansı bir küncündə oturardı. Hər kəsin də belə etməsini istəyərdi.

“Hər hansı biriniz bir məclis yerinə getdikdə ətrafa bir baxsın, əgər oturulacaq yer göstərərlərsə

orada otursun, yoxsa gördüyü ən uyğun yerdə otursun.” buyurardı.

Rəsuli-Əkrəm (s.ə.s) birlikdə oturduğu kəslərin səviyyələrinə görə hər birinin hal və xətrini soruşaraq, onlara iltifat edərdi. Ətrafındakılara elə istiqanlı rəftar edərdi ki, birlikdə oturduğu adamların hamısı Rəsulullah (s.ə.s)-ə ən yaxın, ən dəyərli insanın özü olduğunu zənn edərdi.

Kim isə onun mübarək hüzurunda çox otursa və ya bir ehtiyacını bildirmək məqsədi ilə hüzuruna gəlsə, o şəxs durub gedənə qədər səbir edərdi.

Ondan bir şey istəyəni ya istədiyini verərək, ya da şirin bir dillə yola salardı, ancaq heç vaxt boş qaytarmazdı. Onun comərdliyi, şirin dilliliyi və gözəl əxlaqlı olması insanlar arasında elə yayılmışdı ki, sanki xalqın atası kimi olmuşdu.

Onun nəzərində bütun insanlar bir idi. Heç birinin arasında ayrı-seçkilik etməzdi. Hamı onun, eyni səviyyədəki övladları kimi idi.

Rəsulullahın məclisləri elm, həya, əmanət və səbir kimi əxlaqi dəyərlərin öyrədildiyi bir məclis idi.

Onun hüzurunda heç kim səsini yüksəltməz, heç kimin məhrəm məsələləri haqqında danışılmaz, orada baş verən yanlışlıqlar və xətalar o məclisdən kənara çıxmazdı.

Onun məclisində hər kəs bərabər səviyyədə

idi. Üstünlük ancaq təqva dərəcəsinə görə idi. O, hər kəsə qarşı təvazökar idi. Orada yaşca böyük olanlara hörmət edilər, kiçiklərə də mərhəmət edilərdi. Məclislərdə ehtiyac içində olan insanları qabağa salar, xüsusilə də kasıb olanlarla ayrıca maraqlanardı.

- Sevimli babamız bizim, Peyğəmbər babamız, necə də gözəl davranarmış.

- Atamızdan Peyğəmbər babamızın məclisində olan dost və yoldaşlarına qarşı necə davrandığını da soruşdum.

- Nə qədər çox şey soruşub öyrənmisən sən?

- Təbii ki, öyrənməliyəm. O, babamız deyilmi bizim? Həm də Peyğəmbər babamız.

- Onu da danışarsanmı, görək dostlarına və yoldaşlarına qarşı necə davranarmış?

- Peyğəmbərimiz (s.ə.s) hər vaxt gülər üzlü, mülayim və təvazökar davranardı. Əsla üzünü turşutmazdı. Qatı qəlbli, dalaşqan, hiyləgər, eyib axtaran, yaltaq və qısqanc deyildi. Xoşu gəlmədiyi şeyləri görməməzlikdən gələrdi. Özündən nə isə bir şey uman kimsələrin ümidlərini puç etməz və onları istəklərindən məhrum etməzdi.

Xüsusilə bu üç şeydən çox həssaslıqla uzaq durardı: Söz davası, boşboğazlıq və mənasız şeylər.

Bu üç xüsusdan da etina ilə həzər edərdi:

Heç kimi pisləməz, qınamaz və heç kimin eyibini öyrənməyə çalışmazdı. Yalnız faydalı olacağını ümid etdiyi mövzularda danışardı.

Həzrət Peyğəmbər (s.ə.s) danışarkən məclisində olanlar başlarının üstünə quş qonmuş kimi, heç tərpənmədən diqqətlə qulaq asardılar. Peyğəmbərimiz (s.ə.s) susanda isə danışmaq ehtiyacı duyanlar söz alardılar. Səhabələr Rəsuli-Əkrəmin hüzurunda danışarkən bir-birləri ilə əsla söz ilə mübahisə edib çəkişməzdilər. Aralarından biri Rəsululahın hüzurunda danışarkən, o sözünü qurtarana qədər, hamısı can qulağı ilə danışanı dinləyərdi. Peyğəmbərimizin hüzurunda onların hamısının sözü, birinci danışan adamın sözü qədər mühüm idi.

Səhabələrin güldüklərinə o da gülər, onların təəccüb etdikləri şeylərə də heyrətləndiyini ifadə edərdi. Hüzuruna gələn bəzi insanların kobud danışıqlarına ədəb qaydalarına riayət etmədən soruşulan sualların yol açdığı xoşagəlməz hallara da səbir edərdi.

Səhabələri isə müxtəlif mövzularda məlumat sahibi olmaq üçün onların gəlib sual soruşmalarını çox istəyərdi. “Ehtiyacının aradan qaldırılmasını istəyən bir ehtiyac sahibi ilə qarşılaşdığınız vaxt ona yardım edin.” buyurardı.

Həzrət Peyğəmbər (s.ə.s) ancaq edilən yaxşı-

lığın həcmində olan və çox yaltaqca olmayan tərifləri qəbul edər, həddi aşmadığı müddətcə, heç kimsənin sözünü kəsməzdi. Əgər yüksək hüzurunda həddi aşacaq şəkildə danışılarsa, o zaman ya danışanı susdurmaq, ya da o məclisdən durub getmək surəti ilə ona mane olardı...

- Allah ona rəhmət etsin. Bizi də nurlu yolundan ayırmasın inşallah.

- Amin!

- Peyğəmbər babamız dövründə biz çox kiçik idik. Amma bir xeyli xatirələrimiz oldu onunla, elə deyilmi?

- Bəli, həqiqətən Peyğəmbər babamızla çox gözəl xatirələrimiz oldu. İndi onun üçün çox darıxıram.

- Mən də çox darıxıram onun üçün.

Gül gənclər Peyğəmbər babalarını bir dəfə də yenidən böyük bir həsrət və məhəbbət ilə andılar.

Onlar Peyğəmbər gülləri idi.

Hər ikisi də ayrı bir dahi idi.

Bir araya gəldikləri vaxt da daha böyük bir dahilik nümayiş etdirərdilər. Birinə kim isə bir şey danışsa o da dərhal onu qardaşı ilə paylaşardı. Sonra ikisi birlikdə bütün bunları başqalarına da

danışardılar. Bu hal məhəbbət içində davam edib gedirdi.

Rəsulullah (s.ə.s)-in çox sevdiyi və bəzən də mübarək çiyinlərinə alıb gəzdirdiyi Hz. Həsən ilə Hz. Hüseyn, islam tərbiyəsinin yayıldığı, Quran və Sünnə elminin qaynadığı bir evdə böyümüş və yetişmişdilər.

İstər sevimli anaları Hz. Fatimənin, istərsə babaları Hz. Əlinin diqqət və etina ilə böyütdüyü və Peyğəmbərimizin tez-tez maraqlandığı bu Peyğəmbər nəvələri, bu cənnət gülləri çox geniş bir məlumata sahib idilər.

# Böyük Adamın Böyük Oğlu

**Aslan balası...**

Sevimli ataları Hz. Əli hər vaxt onlar ilə çox yaxından maraqlanardı. Oturub söhbətlər edər, bəzən müxtəlif suallar da soruşardı.

Hz. Həsən atası tərəfindən çağırıldığını eşidb əlindəki işi bir kənara qoydu, dərhal atasının yanına qaçdı.

-Buyur, atacan!

-Səndən bir şey soruşmaq istəyirəm, oğlum, vaxtın varmı?

-Sən nə vaxt istəsən mən hazıram sənin sualına cavab verməyə.

-İndi vaxtın varmı?

-Əlbəttə, buyur, atacan.

Hz. Əli oğlu Həsənin görüş və anlayışını, bi-

lik və zəkasını çox ölçmüşdü. Bu dəfə də yenidən yoxlamaq üçün onu qarşısına aldı.

Hz. Əli soruşdu, Hz. Həsən cavab verdi.

-Doğruluq nədir?

-Pisliyi yaxşılıq ilə aradan qaldırmaqdır.

-Şərəf nədir?

-Ailə və qəbiləni xeyirli işlərə sövq etmək, bu səbəblə meydana gələn kədərli hadisələrə də dözməkdir.

-Mərdlik və insanlıq nədir?

-İffətli olmaq, günah və haramdan qaçmaq, iqtisadi vəziyyəti düzəltməkdir.

-Rafət (bağışlamaq və çox rəhm etmək) nədir?

-Aza baxıb qənaət etmək, insanı alçaldan şeylərin qarşısını almaq, belə hərəkət edərək həm özünü, həm də ətrafındakıları pisliklərdən qorumaqdır.

-Alçaqlıq, xəsislik və qeyri-insanilik nədir?

-Nəfsin əsiri olmaq, sadəcə öz nəfsi üçün çalışmaq və malı da o yolda xərcləməkdir.

-Comərdlik nədir?

-Bolluq və qıtlıq vaxtlar da daxil olmaqla hər zaman Allah üçün möhtaclara yardım etməkdir.

-Çox xəsis olmaq nədir?

-Əlində olan malı şərəf bilmək, Allah üçün xərclənəni yox yerə axıb getmiş saymaqdır.

-Qardaşlıq nədir?

-İqbal və idbardır.

-Yaxşı, bəs iqbal və idbar nə deməkdir?

-Bolluqda da, sıxıntılı günlərdə də ehtiyac sahiblərinə yardım etmək və dostluq əlini uzatmaqdır.

-Qorxaqlıq nədir?

-Dosta qarşı küstax davranmaq, düşmən qarşısında sınmaq və əyilməkdir.

-Qənimət nədir?

-Təqvaya rəğbət edib könüldən bağlanmaq, hər işdə və hər yerdə Allahdan lazım gəldiyi kimi qorxmaqdır.

-Helm (mülayimlik) və səbir nədir?

-Qəzəbi boğmaq və nəfsə hakim olmaqdır.

-Zənginlik nədir?

-Allahın payladığı ruziyə az da olsa razı olmaqdır. Gerçək zənginlik könül zənginliyidir.

-Əzizlik və güc nədir?

-Yeri gəldikdə cəsarətlə danışmaq və haqsız-

lıq etdikləri mövzularda güclülərə qarşı çıxıb, lazım olan cavabı ədəbinə uyğun olaraq verməkdir.

-Külfət nədir?

-Faydası olmayan mövzular üstündə mübahisə etmək və lüzumsuz yerə danışmamaqdır.

-Şan və şərəf, böyüklük və ağır başlılıq nədir?

-Borcu vaxtında ödəmək, borclu sıxıntı içində isə borcunu bağışlamaq, günahkarı da əfv etməkdir..

-Ağıl nədir?

-Anlamaq istədiyi mövzuları və hadisələri məntiq süzgəcindən keçirib, təcrübə tərəzisində çəkməkdir.

- Təmkinli olmaq nə deməkdir?

-Düşünərək və səbri əldən verməyərək hərəkət etməkdir.

- Səhafət (səfehlik) nədir?

- İyrənc işlərə baş qoşmamaq, nəfsin və şəhvətin dalınca düşməməkdir.

- Qəflət nədir?

- Şərəfli və şanlı işləri tərk etmək, zərərli, təxribat törədici və insanları narahat edən hadisələrin axarına qapılmaqdır.

- Çox gözəl cavablar verdin, oğlum. Allah elmini və ixlasını artırsın.

- Bütün bunlar sizin sayənizdə oldu, atacan. Allah sizi başımızdan əskik etməsin.

- Allaha həmd olsun ki, hər ikiniz də çox yaxşı yetişdiniz, oğlum.

- Sayənizdə, atacan.

- Amma unutma ki, sadəcə bilmək, öyrənmək kifayət deyil oğlum. Bilmək ayrı, əməl etmək ayrıdır...

- Bəli, atacan, əsas olan yaşamaqdır təbii ki. İnşallah biz bütün bunların hamısını yaşayıb həyatlarına tətbiq edənlərdən olarıq.

- İnşallah, oğlum, inşallah...

## Örnək güllər...

Nur balalar nur iqlimində yetişmişdilər.

Gül diyarında, güllərdən gül dərərək böyümüşdülər...

Onlar artıq örnək güllər olmuşdular...

Hz. Həsən və Hz. Hüseyn evlənmişdi artıq. Ailə üzvləri ilə birlikdə nur şəhəri Mədinədə yaşayırdılar...

Artıq bütün gunləri böyük bir fədakarlıqla çalışmaqla, ibadət və söhbətlərlə keçirdi.

Allah Rəsulununun nur baxışları altında yetişən Hz. Həsən ilə Hz. Hüseyn gözəl üzlü, mələk xasiyyətli olub, ixlas abidəsi bir gənc olmuşdular...

Hər ikisi də çox gözəl və mənalı danışırdılar. Söhbətlərinə hər kəs heyran qalırdı. Onları dinləmək üçün uzaq diyarlardan yanlarına gəlirdilər.

Kasıb və imkansızlara kömək edir, onlara dəs-

tək olurdular. Elə gün olurdu ki, bütün əllərində olanı fəqir-füqəraya verib, özləri ac sabahlayırdılar.

Ailə həyatlarındakı gözəllik də hər kəsin heyran qalıb örnək aldığı bir davranış halına gəlmişdi. Çünki onlar Peyğəmbər babalarını örnək almışdılar.

Örnək almaqla yanaşı eyni zamanda həm də örnək olurdular.

**Allah yolunda...**

Hər ikisi də dəfələrlə Həccə getmişdilər. Xüsusilə də piyada getməyə üstünlik verirdilər.

Yenə bir dəfə Hz. Həsən piyada olaraq Həccə gedirdi...

Göy üzündə qızmar od saçan günəş, yerdə isə sanki qaynamaq üzrə olan qumlar...

Səhranın amansız istisi mübarək ayaqlarını yaman pis yandırırdı. O nazənin ayaqlar şişib qanrəvan içində qaldı. Xidmətçisi bu hala dözə bilmədi.

-Atam-anam sənə fəda olsun, əziz böyüyüm! Ata minsəniz olmazmı?

-Xeyr, piyada getmək istəyirəm.

- Heç olmasa mübarək ayaqlarınızdakı şişlər yatıb, qanınız da dayanana qədər ata minin?

-Minmək istəmirəm, piyada getmək istəyirəm.

-Amma mübarək vücudunuza əziyyət verirsiniz.

-Eybi yoxdur, qoy Allah yolunda bir az canımız cəfa çəksin, nə olacaq ki...

-Hər saniyəsi Allah yolunda qiymətli bir daşa dönən bu uca şəxsiyyət nurlu bir həyatın içində olmağına baxmayaraq yenə də belə deyirdi...

Bəşər övladını nəsil-nəsil nurlandırmaqla vəzifəli olan Peyğəmbər övladı od kimi yanan, əqrəb kimi sancan qumlar üstündə böyük bir eşq və şövq ilə irəliləyirdi.

Çünki bu səfər Allah üçün idi. Allah yolunda çəkilən hər iztirab və məşəqqət, sevinc və xoşbəxtlik verirdi ona. Dilində durmadan dua və zikrlər dönürdü...

Həcc ibadətini bu eşq və vəcd içində əda edib geri qayıtdı...

**Comərdlik dənizi...**

Günlərin bir günü idi...

Bir nəfər Hz. Həsənin nur kimi parıldayan mübarək hüzuruna gəldi.

-Ey Rəsulullahın sevdiyi! Çox kasıbam, ehtiyaclarımı qarşılaya bilərsənmi?

-Ehtiyacın nədir?

-Filan, filan ehtiaclarım var, deyərək sadalamağa başladı adam.

-Ehtiyacın çoxdur. Mənim buna gücüm çatmaz. Nə qədər versəm yenə də az olar. Əgər qəbul edirsənsə əlimdə olanları sənə verim.

-Verdiyini məmnuniyyətlə qəbul edər, verənmədiyinə görə də səni əlbəttə ki, üzrlü sayaram.

Bu cavabdan sonra Hz. Həsən adamlarından birini çağırdı. "Nə var nə yox, bütün var-dövlətimi yığışdırıb gətirin." dedi. Dediyi kimi etdilər.

Hz. Həsən ehtiyac sahibi olan adama baxdı.

-Haydı, hambalları çağır, gəlib mallarını yükləsinlər.

-Hambal pulum da yoxdur axı, ey Peyğəmbər gülü...

-Hambal pulunu da mən verəcəyəm. Haydı, çağır hambalları.

-Baş üstə, ey Peyğəmbər çiçəyi.

Adam iki hambal tapıb gətirdi. Hz. Həsənin verdiklərini atlara yüklətdi.

Könlü büllurdan da duru olan Hz. Həsən əlində ovucunda bir şeyi qalmadığı üçün hambal pulu olaraq əynindəki cübbəsini çıxarıb verdi.

Bu comərdlik və könül zənginliyi qarşısındakı adam heyrət etdi. Peyğəmbər nəvəsinə təşəkkür

etməklə bərabər dualar edərək, mallanı götürüb, sevinə-sevinə oradan uzaqlaşdı.

Həmin yad adam getdikdən sonra Hz. Həsənin yanındakı adam boynunu bükdü.

-Vallah heç nəyimiz qalmadı, ey böyük insan!

Hz. Həsənin iman aynası olan aydın üzündə səadət gülləri açmışdı.

-Bizə Allah yetər. Ümid edirəm ki, Onun qatında böyük bir mükafat alarıq.

Məhz bu idi nübüvvət ağacının budaqları altında yetişmiş qönçələrin halı.

**Elm və irfan dəryası...**

Bir gün Hz. Həsəndən soruşdular.

-Ya Həsən! Mürüvvət nədir?

Hz. Həsən də güllər kimi gülümsəyib cavab verdi.

- Mürüvvət bəndənin dinini mühafizə edib nəfsini qorxutması, qonağını yaxşı qarşılaması, elmi müzakirələrdə gözəl davranmasıdır...

- Yaxşı, ululuq nədir?

- Ululuq qonşuya əziyyət verməmək və çətinliklərə sinə gərməkdir.

- Kərəm nədir?

- Kərəm isə istəmədən vermək, yerinə görə yemək yedirmək, hər kəsə yumuşaq davranmaq və verdiyini də artıqlamasıyla verməkdir.

Dünyanın cənnətlərə döndüyü Səadət Əsri necə də gözəl idi...

Ogünkü müsəlmanlar imanın zövqünü dadmış, Quran hovuzuna dalmış, Sünnə yollarının yolçuları olmuşdular...

**Comərdliyin zirvəsi...**

Peyğəmbər gülləri, cənnət çiçəkləri Hz. Həsən ilə Hz. Hüseyn, yanlarına Hz. Abdullah b. Cəfəri alaraq Həcc səfərinə çıxmışdılar.

Günəşin od yağdıran şüaları, qumlardan püskürən od kimi qızmar isti hər tərəfi yandırıb yaxırdı.

Əşyalarını, yemək və içəcəklərini yükləmiş olduqları dəvə necə oldusa birdən itdi. Hər şeyləri dəvənin üstündə olduğu üçün çox çətin vəziyyətdə qaldılar.

İki gün hələ təzəcə olmuşdu ki, aclıq və susuzluqdan yeriyəcək taqətləri qalmamışdı artıq. Susuzluqdan dodaqları çatlamış, ciyərləri yanıb qovrulmuşdu.

Dəvə qeyb olmuş, hər şey tükənmişdi...

Çünki hər şeyləri dəvənin üstündə idi...

Bitib tükənmişdilər artıq...

Belə bir anda, səhranın ortasında nöqtə qədər bir qaraltı dəydi gözlərinə. Bütün gücələrini toplayıb çətinliklə də olsa ona doğru getməyə başladılar.

Səhranın ortasında qara bir çadır, içində də qoca bir qadın...

Əldən düşmüş bir halda salam verib xəcalətlə soruşdular.

-Yeməyə, içməyə nə isə  varmı, ana?

-Var əlbəttə.

-Bizi qonaq edərsənmi?

-Buyurun, övladlarım!

Bir anda həyata dönmə ümidi ilə çadıra girib oturdular. Qadıncığazın yalnız bircə qoyunu var idi. Qonaq edə biləcəyi başqa heç nəyi yox idi.

- Qoyunu sağım, südünü için.

Tez qoyunu sağıb onları südə qonaq etdi.

Susuzluqları yatışmışdı. Amma doymamışdılar. Dəhşətli dərəcədə  ac idilər. Utanıb çəkinərək bir də soruşdular.

- Yeməyə nə isə varmı, ana? Qadın güllər kimi gülümsədi.

- Bu qoyunu kəsin, sizə bişirim. Amma bişənə qədər səbir etməli olacaqsınız. Üç nadir gül, artan

bir maraq və məmnuniyyətlə qoyunu kəsdilər. Gül qəlbli qadın kəsilən qoyunu tələsik bişirdi. Bir gül xanım və üç Peyğəmbər sevdalısı oturub birlikdə yeməklərini yedilər. Gənclərin bədənlərinə can, üzlərinə qan gəlmişdi artıq.

- Sənə necə təşəkkür edəcəyimizi bilmirik, ana. Bizi yedirib içirib doyurdun.

- İçirən də, doyuran da Allahdır. Biz sadəcə səbəb olduq.

- Ey qızıl qəlbli ana. Biz Qüreyş qəbiləsindənik. Nəsib olsa Həccə gedirik. Miniklərimizlə birlikdə yeyib içəcəklərimizi və bütün azuqəmizi də itirdik. Onun üçün bu qədər ac idik. Allah səndən razı olsun. Həcc ibadətimizdən sonra Mədinəyə qayıdacağıq. Mədinəyə gələcək olsan, bizi mütləq tap. Biz də səni qonaq etmək istəyirik.

- İnşallah, övladlarım.

- İndi bizə icazə ver, gedək.

- Gülə-gülə gedin, bizə də dua edin, övladlarım. Yolçular yola düşdülər. Aradan bir az vaxt keçdikdən sonra, qadının əri çadırına gəldi. Qoyunu görmədikdə maraqla soruşdu.

- Qoyunu görmürəm, hara getdi görəsən?

- Qoyunu qonaqlarıma ikram etdim. Düz üç nəfər idilər.

- Fəsübhanallah! Ondan başqa heç nəyimiz olmadığını bilmirsən?

- Bilirəm.

- Yaxşı, bəs nə üçün belə etdin?

- Gəlib bizə sığınanları əliboş geri qaytarmalı idim?

- Onları tanıyırdın?

- Xeyr.

- Yəni tanımadığın üç nəfərə varımız-yoxumuz olan qoyunu kəsib yedirdin, eləmi?!

- Eynilə elə oldu.

- Kim olduqlarını da soruşmadın?

- Soruşmadım. Ancaq onlar Qüreyş qəbiləsindən olduqlarını dedilər.

- Belə ünvanmı olar? Bəs indi özümüz nə edəcəyik?

- Allah bizə yetər.

- Yaxşı, axı biz də yol üstündəyik, nə yeyib-içəcəyik?

- Allah kərimdir.

- Amənna...

- Qadın qəlbindəki iman sevinci ilə, daima güllər kimi gülümsəyirdi...

**Bizi tanıdınmı ana?**

Günlərin birində könlü də əxlaqı da gözəl olan Hz. Həsən onlara səhrada yemək yedirən qadını bazarda görüb tanıdı. Qadıncığaz qoca yaşına baxmayaraq hambalhq edərək çörək pulu qazanmağa çalışırdı.

- Ey qızıl qəlbli anam! Məni tanıdınmı?

- Tanıya bilmədim oğul, bağışla, qocalıq belə şeydir...

- Mən iki dostumla birlikdə səhrada sənin qonağın olan həmin adamam.

- Həə, yadıma düşdü, sən onlardan birisən.

- Gəl, anam, səni evimə aparacağam. Bu dəfə də mən sənə qonaqlıq verib ikram edim. Beləcə borcumu ödəmiş olaram.

- Mənə heç bir şey borclu deyilsən oğul. Qonağa ikram etmək, yoluna qurban olduğum Peyğəmbərin sünnəsi deyilmi?

- Mən də o Peyğəmbərin böyük nəvəsi Həsənəm!

- Aman Allahım! Sən doğrudan da gözümüzün nuru Həsənsənmi, oğul?

- Bəli, ana.

- Rəbbimə şükürlər olsun ki, məni səninlə görüşdürdü. Biz sizi çox sevirik ey gül Peyğəmbərin

gülü, ey nazlı Fatimənin nazlı çiçəyi! Biz sizi çox sevirik oğul.

- Mən də səni sevdim, anam. Haydı evimə təşrif buyur.

- O şərəf sizdəndir, ey gözümüzün nuru.

Hz. Həsən yaşlı qadını götürüb evinə apardı. Ona yemək verdi, adına layiq süfrə açdı. Axırda da bir sürü qoyun ilə birlikdə min qızıl verdi. Qadın təəccüb içində baxarkən onu götürüb qardaşı Hz. Hüseynin yanına apardı. Baş verənləri danışdı. Qadın yenə duyğulandı.

- Aman Allahım! Sən də gözümüzün nuru Hüseynsən demək!

Hz. Hüseyn də qadını qonaq edib bolca ikram etdi. Üstəlik qadına böyük qardaşının verdiyindən bir az da artıq hədiyyələr verdi.

Sonra onu götürüb Abdullah b. Cəfərin yanına getdilər.

- Bu da Mutə şəhidlərindən Cəfərin oğlu Abdullah. Qadın duyğu selində boğulurdu.

- Demək sən də Hz. Abdullahsan hə?!

Hz. Abdullah da qadına hər ikisini verdiyindən də artığını verdi.

Qadın olanlara inana bilmirdi. Təzək yığıb sataraq və hamballıq edərək dolanışığını təmin etməyə calışarkən, bir anda varlanıb zəngin olmuşdu.

Belə bir comərdlik və ehsan qarşısında heyrətdən ağzı açıq qalmış, nə deyəcəyini bilməz olmuşdu.

Bu üç seçkin insan qadını qoyun sürüləri, dəvə sürüləri və dəvələrə yüklənmiş qiymətli mallarla yola salarkən, qadın ağlayırdı.

- Ey gozumun nurları! Sizə necə təşəkkür edəcəyimi, nə deyəcəyimi bilmirəm. Allah sizləri iki dünyada da əziz etsin. Mənə izzət və ikram edib qonaq saxladınız. Dolanışığımı çətinliklə təmin edərkən, məni barmaqla sayılan varlılardan biri halına gətirdiniz. Allah sizdən razı olsun.

- Sən ki, əlindəki yeganə varın olan qoyunu qonaqların üçün kəsib ikram etdin, sənin comərdiyinin yanında bizimki nə comərdlikdir axı?

Peyğəmbər nəvələri olduğunuzu necə də təsdiq etdiniz. Rəbbim sizi hər cür kəm gözlərdən qorusun.

**Bir qoyun qarşılığında böyük bir sərvət...**

Qadın böyük bir sevinclə ərinin yanına qayıtdı.

Kişi bu qədər sərvətlə gələn arvadına təəccüb içində baxa-baxa qalmışdı.

- Bunlar nədir belə, xanım?

- Bunların hamısı bizimdir, ay kişi.

- Başa düşmədim!

- Bunların hamısı bizimdir, dedim.

- Amma necə ola bilər axı?

- Artıq olub.

- Haradan tapdın bu qədər sərvəti?

- Onlar verdi.

- Onlar kimdir?

- Üç qüreyşli.

- Üç qüreyşli?

- Bəli.

- Kimdir ki, onlar, nəyə görə versinlər axı?

- Niyə başa düşmürsən, ay kişi?

- Nəyi?

- Yadına gəlir, yeganə qoyunumuzu üç qüreyşliyə kəsib ikram etmişdim və sən "Bu nə ünvandır?" deyə hirslənmişdin.

- Onlarmı verdilər yəni bu qədər malı?

- Bəli.

- Allah Allah! Necə ola bilər?

- Gördüyün kimi oldu. Həm də o üç qüreyşlinin kim olduğunu bilirsənmi?

- Kimlərdir ki?

- İkisi sevimli Peyğəmbərimizin nəvələri!

- Aman Allahım! Gözlərimizin nuru, cənnət gəncləri Həsən ilə Hüseynmi yoxsa?

- Özüdür ki, var.

- Allahu Əkbər! Məni onların yanına apar dərhal.

- Tələsmə. Biri Həsən, biri Hüseyn, biri də Hz. Cəfərin oğlu Abdullah...

- Nə şərəfli adamları qonaq etmisən xanım.

- Həm də kim olduqlarını bilməyərək.

- İndi bütün bunlar hamısı bizimdirmi?

- Bəli, hamısı bizimdir.

- Allahu Əkbər!

Yaşlı qarı-qoca, yaşlarının bu çağında böyük bir sərvətə sahib olmuşdular. Xüsusilə qadın “Bir qoyun verdim, yerinə böyük bir sərvət aldım” deyə şükür edərək göz yaşı tökürdü.

Məhz onlar belə bir əsalətin zirvəsində gəzib-dolaşırdılar...

***

Peyğəmbərimiz (s.ə.s)-dən sonra xəlifələr dövrünün ən gözəl günləri yaşanmışdı.

Hz. Əbu Bəkr və Hz. Ömər dövrləri bu dövrə

hər baxımdan damğasını vurmuş, indi də Hz. Osman dövrü hökm sürürdü.

Bu günlərə qədər çox böyük məsafələr qət edərək gəlmişdilər.

Bir tərəfdən xalqın davamlı maarifləndirilməsi və parlaq günlərin davam etməsi üçün çalışır, bir tərəfdən də yeni ölkələr fəth edilərək təbliğ halqaları genişləndirilirdi.

Hz. Həsən ilə Hz. Hüseyn qardaşları da bu fəaliyyətlət içində vəzifələrini yerinə yetirir, bir yandan da gözəl örnək olmalarına davam edirdilər.

Xəlifələr dövründə fəthlər ilə islamın səsi ən uzaq yerlərə qədər gedib çatmışdı. Bunlardan əsaslarını belə sıralaya bilərik...

Üsamə ordusu və Riddə döyüşləri ilə başlayan xəlifələr dövrü fəaliyyətləri Yərmuk döyüşü ilə böyük bir yüksəliş qazandı.

Qadisiyyə döyüşü isə başlı-başına bir dastan olmuşdu...

İran, İraq, Mədain, Suriya, Şam, Qüds, Tüstər, Misir, Şimali Afrika, İsgəndəriyyə fəthləri...

Kufə və Bəsrə şəhərlərinin qurulması...

Dəniz döyüşləri və Kiprin fəthi...

Bununla paralel olaraq aparılan elm fəaliyyətləri...

Qurani-Kərimin çoxaldılaraq uzaq diyarlara qədər yayılması...

Bütün bu fəaliyyətlər içində bəzən səfərlərdə iştirak edərək, bəzən də Mədinədəki fəaliyyətləri davam etdirərək çox böyük rol oynayan Hz. Həsən ilə Hz. Hüseyn qardaşları, başda xəlifələr olmaq üzrə, bütün hər kəsin təqdirini qazanmışdılar...

Çünki verilən hər vəzifəni böyük bir uğur ilə yerinə yetirir və öhdəliklərinə yeni vəzifələr götürürdülər.

Hər vaxt və hər yerdə olduqca uğurlu fəaliyyətlərlə özlərini göstərirdilər...

Çünki onlar fəal gənclər idi...

Fəal gənclər davamlı olaraq fəal fəaliyyətlər içində idilər...

**Gül diyarının Nazənin Gülləri...**

Hz. Həsən (r.a)...

Hz. Hüseyn (r.a)...

İki qönçə gül...

Gül diyarının nazənin gülləri...

Əvvəlcə ana qucağında sonra ata ocağında, sonra da Peyğəmbər bağrında yetişən bəxtiyar güllərdən iki qönçə gül...

Dünyaya gəliş məqsədlərini çox yaxşı bilən, ilk təhsillərini ata-analarının yanında, Peyğəmbər babalarından alan iki bənzərsiz gül...

Hər biri bir ayrı ulduz mövqeyində olan Səhabeyi-kiram arasında da özünəməxsus bir yerə sahib nazənin güllər...

Əxlaq, ədəb, həya, elm, irfan... kimi ülvi dəyərlərin zirvələrində gəzib dolaşan iki can.

Qəhrəmanlıq, şücaət, comərdlik, kərəm... abidələri.

Sevimli Peyğəmbərimizin sevimli nəvələri...

Hz. Həsən... Hz. Hüseyn...

Hər vaxt və hər yerdə, hər yönü ilə örnək bir həyat yaşayan iki örnək...

Hicri 29-cu ildə Hz. Həsən 26 yaşına qədəm basmış bir gül idi...

Yenə Hicri 29-cu ildə, Hz. Hüseyn 25 yaşında bir gül idi...

(Biz burada yalnız 25-26 yaslarına qədər olan həyatlarını verdik).

Lakin bu iki cənnət gənci uzun illər daha yaşayacaq və çox böyük xidmətlər edəcəkdilər...

Hz. Həsən (r.a.) 47 yaşına qədər yaşayacaq və 28 Səfər Hicri 49-cu ildə (7 Aprel Miladi 669) Mədinədə şəhid ediləcəkdi...

Hz. Hüseyn (r.a) 57 yaşına qədər yaşayacaq və 10 Məhərrəm Hicri 61-ci ildə (10 Oktyabr M. 680) Kərbəlada şəhid ediləcəkdi...

Bütün həyatları boyunca incələrdən incə, gözəllər gözəli, güllər gülü, örnəklər örnəyi bir həyat yaşayaraq, ata-analarına və Peyğəmbər babalarına şəhid olaraq qovuşacaqdılar.

Allah və Rəsuluna şəhid olaraq qovuşan iki cənnət gülü...

İki böyük şəhid...

Gül diyarının nazənin gülləri idi onlar.

İki can idi onlar, iki can!

O canları örnək almaq və onlar kimi örnək bir həyat yaşamaq arzusu ilə...

Salət və salam olsun, bu nazənin güllərə...

Salət və salam olsun, bütün səhabələrə...

Salət və salam olsun, Peyğəmbərimizə...

**MÜNDƏRİCAT**

**TƏQDİMAT** ..........................................................5

**HƏZRƏT PEYĞƏMBƏRLƏ** ..........................7

**İslam Günəşi**............................................7

**Gül ailə**......................................................8

**Gül ailənin birinci gülü...** ......................10

**İkinci gül...**...............................................15

**Qönçə gülləri incitməyin...** ...................19

**O nə gözəl süvaridir...**............................21

**Qönçə gülləri ağlatmayın**......................21

**Sevimlinin sevdikləri**..............................23

**İmtahan vəsiləsi**.......................................24

**Dəvəyə minmək istəyirəm...** ...................25

**İki qönçə gülün güləşi...**..........................29

**Allahı sevən Hüseyni sevər...**..................30

**Əhli-Beyt...**.................................................31

**Əhli-Beyt bir süfrədə...**.............................33

**Balaca, oradasanmı?**.................................35

**Çox sevilənlər**............................................36

**Həsən ilə Hüseyn Peyğəmbər babalarının yanında...............................37**

**Mələklərin qoruduğu gül balalar............38**

**Mədinə dövründə... ..................................41**

**Qönçə güllərə Allahın hədiyyəsi.............42**

**ƏN AĞIR GÜNLƏRİ.....................................47**

**Peyğəmbər babaları xəstə yatağında...... 47**

**Həzin ziyarətlər... .....................................49**

**Həm bülbül, həm qartal... ........................50**

**Gül qardaşlar............................................51**

**Namaza gedə bilməyən Peyğəmbər baba....52**

**Çox sıxıntılı bir gün... ..............................53**

**Onunla birlikdə 7-8 il... ...........................55**

**PEYĞƏMBƏRİMİZDƏN SONRA ..............57**

**Yaslı güllər... ............................................57**

**Rəsulullahın xəlifəsi... .............................58**

**Şəfqətli xəlifə... ........................................58**

**Qönçə güllərin anaları xəstə yatağında....61**

**Yetim güllər...............................................62**

**Doğma anadan fərqlənməyən gözəl ana......64**

**XƏLİFƏLƏR DÖVRÜNDƏ ..........................71**

**Vəfalı güllər...............................................71**

**Həssas müsəlmanlar.................................73**

**Hansımız daha yaxşı dəstəmaz alırıq?...74**

**Örnək güllər...............................................80**

**Ədəb və həya inciləri...............................80**

**Peyğəmbər babamız geri qayıtdı sanki........82**

**PEYĞƏMBƏRİMİZDƏN DANIŞARSINIZMI? . 87**

**Sevimli dayımız... ....................................87**

**Peyğəmbər həsrəti..................................89**

**Bizə Peyğəmbərimizdən danış... ............90**

**BÖYÜK ADAMIN BÖYÜK OĞLU............109**

**Aslan balası..............................................109**

**CƏNNƏT GƏNCLƏRİ .................................115**

**Örnək güllər..............................................115**

**Allah yolunda..........................................116**
**Comərdlik dənizi....................................117**
**Elm və irfan dəryası................................119**
**Comərdliyin zirvəsi.................................120**
**Bizi tanıdınmı, ana?................................124**
**Bir qoyun qarşılığında böyük bir sərvət.....126**
**Gül diyarının Nazənin Gülləri...............130**
**MÜNDƏRİCAT..............................................133**